HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 02 (692) ■ 15 yanvar 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan ötən il bütün sahələrdə dinamik inkişafını davam etdirmişdir

*Yanvarın 9-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*



*Dövlətimizin başçısı iclasda giriş nitqi ilə çıxış etmiş, 2013-cü ilin ölkəmiz üçün uğurlu il olduğunu bildirmişdir.*

Prezident İlham Əliyev qeyd etmişdir ki, yola saldığımız ildə Azərbaycanda böyük işlər görülmüş, ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artmış, aparılan islahatlar daha da dərinləşmişdir. Prezident İlham Əliyev 2013-cü ildə ümumi daxili məhsulun təxminən 6 faiz artdığını, bu rəqəmin çox böyük göstərici olduğunu bildirmişdir: «Nəzərə alsaq ki, bu gün dünyanın əksər ölkələrində ümumi daxili məhsul yarım faiz, 1 faiz, 1,5 faiz artır, təxminən 6 faiz səviyyəsində artan ümumi daxili məhsul böyük nəticədir. Ən sevindirici məsələ ondan ibarətdir ki, qeyri-neft sektorumuz 9,8 faiz artmışdır. Yəni, təxminən 10 faiz artmışdır və bu da son illərdə aparılan islahatların nəticəsidir. Aparılan islahatlar bunu təmin edibdir. Qeyri-neft sektorunun gələcək illərdə də inkişafını təmin etmək üçün indi ciddi proqramlar icra edilir və növbəti illərdə icra ediləcəkdir. Əminəm ki, biz bu dinamikanı saxlayacağıq. Əhalinin pul gəlirləri 8 faiz artmışdır. İnflyasiya isə cəmi 2,4 faizdir. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələyir. Bu, onu deməyə əsas verir ki, vətəndaşların rifah halı yaxşılaşır və müsbət dinamika burada da özünü göstərir».

Ötən il ölkə iqtisadiyyatına 28 milyard dollar investisiya qoyulduğunu diqqətə çatdıran dövlətimizin başçısı bunu rekord göstərici hesab etdiyini, heç vaxt ölkəmizə bu qədər investisiya qoyulmadığını vurğulamışdır: «Son bir neçə il ərzində orta hesabla 20-21-22 milyard dollar investisiya qoyulurdu, artıq 28 milyard dollar investisiya qoyulur. Onun 17,5 milyard dolları daxili sərmayədir. Bu da artıq neçə ildir ki, davam edən tendensiyadır. Daxili sərmayə xarici sərmayəni üstələyir. Bu, hesab edirəm ki, müsbət haldır. Əlbəttə ki, daxili sərmayənin içində əsas sərmayə dövlət sərmayəsidir».

İşsizliklə bağlı olan problemlərin də öz həllini tapdığını, ötən il 110 min yeni iş yeri açıldığını diqqətə çatdıran dövlətimizin başçısı bildirmişdir ki, yeni yaradılan iş yerlərinin 80 mini daimidir: «İşsizliyin səviyyəsi 5 faizə düşmüşdür. Yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür, 5,3 faizdir. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. Bu da dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür».

Dövlətimizin başçısı 2013-cü ildə qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımların atıldığını, kosmik sənayenin inkişafında yeni mərhələnin başlandığını, Azərbaycanın ilk süni peyki olan «Azərspace-1»in fəzaya qaldırıldığını bildirmişdir. Qeyd olunmuşdur ki, iqtisadiyyatın hərtərəfli inkişafı ilə bağlı mühüm tədbirlər görülmüş, turizm sahəsində böyük addımlar atılmış, kənd təsərrüfatında 5 faiz artım əldə olunmuşdur. İnfrastrukturun yeniləşməsi davam etdirilmiş, magistral yollar, yaşayış məntəqələrini birləşdirən kənd yolları çəkilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi davam etdirilmişdir. Hazırda digər nəhəng bir infrastruktur obyekti olan Ələt Dəniz Ticarət Limanı tikilir. Dəmir yolunun, hava nəqliyyatının yenilənməsi prosesi gedir.

Prezident İlham Əliyev 2013-cü ildə neft-qaz sektorunda mühüm tarixi hadisələrin baş verdiyini, Azərbaycanın neft-qaz potensialının inkişafı və möhkəmləndirilməsi üçün tarixi sazişlərin bağlandığını da qeyd etmişdir: «2012-ci ildə TANAP layihəsi ilə bağlı sazişin imzalanması buna gətirib çıxardı ki, 2013-cü ilin iyun ayında Trans-Adriatik boru xətti əsas marşrut kimi seçilmişdir. Ondan sonra müvafiq kontraktlar bağlanmışdır. Artıq Azərbaycan qazının 2018-ci ildən sonra Avropada satılması ilə bağlı bütün kontraktlar bağlanmışdır. Bu da çox önəmli bir hadisə idi. Nəhayət, ilin sonunda - dekabrın 17-də Bakıda «Şahdəniz-2» investisiya Sazişi bağlanmışdır. Bu tarixi nailiyyətdir, tarixi qələbəmizdir. Bu layihə XXI əsrin layihəsidir.Bu layihə Azərbaycana böyük dividendlər gətirəcəkdir - həm iqtisadi, həm siyasi. Ölkəmizin nüfuzu, bizim iqtisadi gücümüz artacaqdır. Ölkəmizə böyük həcmdə investisiyalar gətiriləcəkdir. «Şahdəniz-2», TANAP, TAP - yəni bu məsələ ilə bağlı olan layihələrin icrası ancaq ilkin hesablamalara görə, 45 milyard dollar investisiyanın cəlb edilməsinə xidmət göstərəcəkdir».

Azərbaycan Prezidenti bildirmişdir ki, respublikamızın beynəlxalq əlaqələrinin inkişafı üçün gözəl imkanlar yaranmışdır: «2013-cü ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı fəaliyyəti başa çatdı. İki il ərzində Azərbaycan öz mövqeyini ortaya qoydu. Mən bəyan etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında biz beynəlxalq hüququ və ədaləti müdafiə etmişik, hər bir məsələ ilə bağlı konkret mövqe sərgiləmişik, prinsipial mövqe tutmuşuq. Deyə bilərəm ki, bu iki il ərzində beynəlxalq birlik tərəfindən Azərbaycana olan inam və dəstək daha da artdı. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasına seçiləndə 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir. Hazırda hesab edirəm ki, bu dəstək daha da böyükdür. Bu, onu göstərir ki, beynəlxalq aləm dövlətimizin mövqeyini müdafiə edir, dəstəkləyir, addımlarımızı təqdir edir. Çünki Azərbaycan bütün beynəlxalq təşkilatlarda özünü ləyaqətlə aparır, prinsipial mövqeyini və öz milli maraqlarını hər şeydən üstün tutur. Eyni zamanda, 2013-cü ildə Azərbaycanda bir sıra beynəlxalq tədbir keçirilmiş, Avropa İttifaqı ilə vizaların sadələşdirilməsi istiqamətində önəmli saziş imzalanmışdır».

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev qeyd etmişdir ki, problemin həlli işində, əfsuslar ki, heç bir irəliləyiş olmamışdır: «Ermənistan tərəfi il ərzində danışıqlar prosesini yenə də müxtəlif bəhanələrlə uzatmaq taktikasını seçmişdir. Demək olar ki, il ərzində danışıqlar prosesində heç bir irəliləyiş olmamışdır, durğunluq hökm sürmüşdür. Sadəcə olaraq ilin sonunda müəyyən canlanma müşahidə edilib. Görərik, əgər Ermənistan məsələnin həlli ilə bağlı konstruktiv mövqe nümayiş etdirərsə, qısa müddət ərzində razılaşmaya gəlmək mümkün olacaqdır. Müəyyən ümidlər, müəyyən nikbin məqamlar vardır, ancaq 2014-cü ildə biz bunları araşdıracağıq. Hər halda 2014-cü ildə Ermənistanın həqiqi niyyəti tam bəlli olacaqdır. Sözün düzü, keçən dövr nikbinliyə o qədər də əsas vermir. Çünki Ermənistan bütün danışıqlar prosesi zamanı qeyri-konstruktiv mövqe sərgiləmişdir, vaxtı uzatmaq taktikasını seçmiş və beləliklə, danışıqlar prosesini iflic vəziyyətə salmışdır». Dövlətimizin başçısı 2014-cü ildə münaqişənin həlli ilə bağlı danışıqlar prosesində müsbət dəyişikliklər olacağına ümid etdiyini diqqətə çatdırmışdır.

*İclasda çıxış edən maliyyə naziri Samir Şərifov, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, səhiyyə naziri Oqtay Şirəliyev rəhbərlik etdikləri sahələr üzrə 2013-cü ildə əldə olunmuş uğurlardan və 2014-cü ildə icrası planlaşdırılan layihələr barədə ətraflı məlumat vermişlər.*

İclasa yekun vuran Prezident İlham Əliyev əvvəlki illərdən icrasına başlanmış layihələrin davam etdiriləcəyini, habelə iri investisiya layihələrinin həyata keçiriləcəyini bildirmişdir. Dövlətimizin başçısı investisiyaların artımı şəraitində makroiqtisadi sabitliyin qorunub saxlanılması zəruriliyini də önə çəkmişdir: «Hələ infrastruktur layihələrinin icrasına böyük ehtiyac vardır. Düzdür, son illərdə böyük işlər görülmüşdür, ancaq hələ ki, görüləsi işlər çoxdur. İstisna edilmir ki, Azərbaycana 2014-cü ildə qoyulacaq investisiyalar keçən ildə qoyulan investisiyaların səviyyəsində olacaqdır. Belə olan halda əlbəttə ki, makroiqtisadi vəziyyətin sabitliyi əsas şərtdir. Azərbaycanda iqtisadi islahatların aparılmasında böyük təcrübə toplanmışdır. Hətta maaşların qaldırılması, əmanətlərin verilməsi və milyardlarla dollar həcmində qoyulan sərmayə makroiqtisadi sabitliyə mənfi təsir göstərmir. Keçən il inflyasiyanın cəmi 2,4 faiz səviyyəsində olması bunu göstərir. Bu, çox müsbət göstəricidir. Çalışmalıyıq ki, bu il də inflyasiya lazımi səviyyədə olsun. Biz həmişə deyirik ki, birrəqəmli inflyasiya olmalıdır. Ancaq doqquz da birrəqəmli ədəddir. Ancaq keçən il ölkədə inflyasiyanın 2,4 faiz səviyyəsi əlbəttə ki, bizi çox sevindirir. Çalışmalıyıq ki, təxminən bu səviyyə bu il də saxlanılsın».

2014-cü ildə ümumi daxili məhsul istehsalının proqnozlaşdırılan səviyyədə olacağını bildirən Prezident İlham Əliyev bu məçqsədlə qeyri-neft sektorunun, xüsusilə də sahibkkarlığın inkişafına xüsusi diqqət yetiiriləcəyini vurğulamışdır: «Əminəm ki, 2014-cü ildə bizim statistik göstəricilərimiz də, ümumi daxili məhsul da, qeyri-neft sektorunun inkişafı da yüksək səviyyədə olacaqdır.

Sahibkarlara dəstək davam etdiriləcəkdir. Burada rəqəmlər səsləndi ki, keçən il sahibkarlara güzəştli şərtlərlə 275 milyon manat kredit verilmişdir. Bu, həm də iqtisadiyyatımızın real sektoruna qoyulan əlavə sərmayədir. Çünki bu kreditlərin ancaq iqtisadiyyatın real sektoruna verilməsi nəzərdə tutulur. Eyni zamanda, bu, yerli sahibkarlığın inkişafı üçün də böyük dəstəkdir. Çünki həm bu pul vəsaitidir, eyni zamanda, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən tərtib edilən tövsiyə proqramları da vardır ki, sahibkarlar onlardan da səmərəli şəkildə istifadə edirlər».

Prezident İlham Əliyev il ərzində ölkə regionlarının və Bakı şəhərinin kənd və qəsəbələrinin inkişafı ilə bağlı yeni dövlət proqramlarının təsdiq edilərək icrasına başlanılacağını, infrastruktur layihələrinin diqqət mərkəzində olacığını qeyd etmişdir: «İnfrastruktur layihələrinin içində deyə bilərəm ki, hazırda ən böyük önəm daşıyan layihələr içməli su, kanalizasiya layihələridir. Keçən il mən bir neçə şəhərdə içməli su layihələrinin açılışında iştirak etmişəm və bu il də bu proses davam etdiriləcəkdir. Bütövlükdə respublika üzrə əhalinin 55 faizi 24 saat ərzində içməli su ilə təmin edilir. Əlbəttə ki, bu, çox aşağı bir göstəricidir. O da həqiqətdir ki, içməli su, kanalizasiya məsələləri bütün dövrlərdə çox kəskin problem olmuşdur. Bölgələrimizdə kanalizasiya xətləri ümumiyyətlə olmamışdır. Bakının kanalizasiya xətləri köhnəlmişdir, bugünkü standartlara uyğun deyildir. Ona görə, bu, böyük maliyyə və texniki resurslar tələb edən layihələrdir. Biz artıq bu layihələrə başlamışıq və işlər uğurla gedir».

Sonda dövlətimizin başçısı 2014-cü ilin «Sənaye ili» olacığını bildirmiş, il ərzində sənayeləşmə istiqamətində ciddi tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırmışdır: «Keçən il Azərbaycanda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilmişdi. Bunun əsas səbəbi ondan ibarət idi ki, keçən il biz birinci peyki orbitə buraxdıq və bütövlükdə İKT sahəsinə böyük diqqət verilmişdir. Hesab edirəm ki, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət verilməlidir. Texnoparklar, yeni sənaye müəssisələri, ixrac yönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması - bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir. Bütün bu amilləri nəzərə alaraq, mən hesab edirəm ki, biz 2014-cü ili «Sənaye ili» elan edək. Müvafiq sərəncam imzalanacaqdır. «Sənaye ili»ndə sənayenin inkişafı ilə bağlı görüləcək konkret tədbirlər planı tərtib və təsdiq ediləcəkdir».

2 Hesabatlar vaxtında təqdim olunmalıdır

3 Vergi qanunvericiliyinə könüllü əməl edilməsi əsas prioritetlərdəndir

4 «İKT ili»nə yekun vuruldu

5 Sənayeləşmədə keyfiyyətcə yeni mərhələ başlayır

# Ötən il Vergilər Nazirliyinin xətti ilə büdcəyə 6,6 milyard manatdan çox vəsait daxil olmuşdur

2013-cü ilin yanvar-dekabr aylarında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 6 milyard 663 milyon 633,4 min manat vəsait daxil olmuşdur ki, bu da 2012-ci ildəkindən 638 milyon 128,8 min manat və ya 10,6% çoxdur. Daxilolmaların ümumi məbləğinin 35,6%-i mənfəət vergisinin, 25,9%-i əlavə dəyər vergisinin, 12,9%-i fiziki şəxslərin gəlir vergisinin, 7,7%-i aksizlərin, 17,9%-i isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 3 milyard 761 milyon 560 min manat vəsait daxil olmuşdur. Bu isə əvvəlki ildəkindən 474 milyon 912,2 min manat və ya 14,4% çox olmuşdur.

Yanvar-dekabr aylarında respublika üzrə 72 min 984 vergi ödəyicisi, o cümlədən elektron qaydada 30 min 791 (42,2%) vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 yanvar 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 537 min 828 təşkil etmiş, 2013-cü il ərzində onların sayı 11,6% artmışdır.

2013-cü ilin yanvar-dekabr ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,3% olmuşdur.

**2013-cü ildə vergi daxilolmaları**




# Qanunu pozanlar məsuliyyətə cəlb olunur

2013-cü il ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 92 min 810 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 24 min 915 nəfər vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 6 min 213 nəfər tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 3 min 167 nəfərin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 6 min 772 nəfərin xüsusi razılıq (lisenziya) tələb edilən fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 5 min 244 vergi ödəyicisi tərəfindən 3 min 371 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 2 min 423 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 727 ödəyicidə isə aksiz markaları ilə müvafiq qaydada markalanmamış 17 min 170 ədəd mal olduğu aşkarlanmışdır.

Faktlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

# Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri davam edir

*Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən 2013-cü il ərzində vergi ödəməkdən yayınma, qanunsuz sahibkarlıq, yalançı sahibkarlıq, aksiz markaları ilə markalanmamış malların satılması faktları üzrə cəmi 519 cinayət işi başlanmışdır ki, bu da ötən illə müqayisədə 102 iş çoxdur.*

Həmin cinayət işlərindən 212-si səyyar vergi yoxlamalarının nəticələri, 286-sı vergi borcunun ödənilməməsi, 15-i vergi nəzarəti tədbirlərinin nəticəsinə dair vergi orqanlarından, 6-i isə digər hüquq-mühafizə orqanlarından daxil olmuş materiallar üzrə başlanmışdır. Departamentin İstintaq idarəsində icraatda olmuş cinayət işlərindən 383-nün ibtidai istintaqı tamamlanmışdır. Bu işlər üzrə cəmi 122 nəfər barəsində 124 iş ittiham aktı ilə baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Hesabat dövründə 259 işin icraatına xitam verilmiş, 20 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. 167 iş üzrə müəssisə rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə cinayət məsuliyyətindən azad edilmişlər.

Cinayət işlərinin araşdırılması zamanı dövlət büdcəsinə 31 milyon 363,6 min manat vəsait ödənilmişdir ki, bu da 2012-ci illə müqayisədə 2,1 dəfə çoxdur.

Əməliyyat-axtarış tədbirləri nəticəsində barələrində axtarış elan edilmiş 37 nəfər tutularaq istintaqa təhvil verilmiş, istintaqdan yayınan 483 şəxsin məcburi qaydada gətirilməsi, 273 şəxsin tapılaraq istintaqa gəlmələri, 273 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından yayınan, fəaliyyətləri barədə bəyannamə təqdim etməyən və əmlakın siyahıya alınmasına maneçilik törədən 636 nəfər vergi ödəyicisi müvafiq vergi orqanlarına təqdim edilmişdir.

# Hesabatlar vaxtında təqdim olunmalıdır

*Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.*

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər. Ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür. Həmçinin ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Bəyannamənin təqdimetmə (habelə verginin ödənilmə) müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, bəyannamə növbəti iş günü təqdim edilə bilər. Bu ilin 20 yanvar tarixi qeyri-iş günü olduğundan bəyannamənin təqdim etmə müddətinin sonuncu günü 21 yanvardır.

Onu da qeyd edək ki, hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

Dövlət rüsumu üzrə hesabat dövrü də rüb hesab olunur. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər dövlət rüsumunun tutulması barədə hesabatları hesabat rübündən sonrakı ayın 20-dək vergi orqanına təqdim etməlidirlər.

Vergi qanunvericiliyinə əsasən, vergi hesabatının verilməməsi və ya fəaliyyətin olmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi 40 manat məbləğində cərimələnir. Bundan başqa, verginin hesabatda göstərilən məbləği göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

Onu da qeyd edək ki, hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi halda və şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə, yaxud qismən ləğv edilərsə, vergi ödəyicisinin kompensasiya və ya həmin məbləğlərə görə faizlər almaq hüququ vardır. Həmçinin vergi ödəyicisi şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququna malikdir.

**Rəşad SADIQOV**

# İnsan resurslarının inkişafı əsas hədəflərdəndir

## «Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı» bu istiqamətdə yeni imkanlar açır

*Son illər Azərbaycanın vergi sistemində həyata keçirilən islahatların praktik nəticələr verməsi idarəetmə sisteminin peşəkar kadrlar hesabına komplektləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Bu sahədə aparılan sistemli və ardıcıl iş Vergilər Nazirliyinin çevik, innovativ və keyfiyyətli xidmətləri ilə seçilən müasir dövlət qurumuna çevrilməsini təmin etmişdir.*

İnsan resurslarının inkişafı sahəsində iş 2013-cü ildə də davam etdirilmiş, bir sıra beynəlxalq ekspertlərin iştirakı ilə vergi orqanı əməkdaşları üçün treninq və kurslar təşkil olunmuşdur. Həmin treninq və kurslarda vergi orqanı əməkdaşlarına bir sıra prioritet istiqamətlər - liderlik, motivasiya, qiymətləndirmə, təlim, müstəqil düşünmə və qərar qəbuletmə bacarığı, kollektivdə birgə fəaliyyət göstərmək, riskləri idarəetmə qabiliyyətinin inkişafı ilə bağlı zəruri biliklər verilmişdir.

Vergilər nazirinin 2013-cü il 19 mart tarixli əmri ilə təsdiq edilmiş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»nda əksini tapmış hədəflərin reallaşdırılması, ilk növbədə, mövcud insan resurslarının idarə edilməsi mexanizminin təkmilləşdirilməsini obyektiv zərurətə çevirmişdir. Strategiyada vergi orqanı əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması baxımından informasiya texnologiyalarından istifadə, habelə müasir təlim metodlarının tətbiqi zərurəti önə çəkilmişdir. Məhz bu reallıqlar nəzərə alınmaqla vergilər nazirinin əmri ilə «Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı» təsdiq edilmişdir.

**Vergilər nazirinin 2013-cü il 19 mart tarixli əmri ilə təsdiq edilmiş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»nda əksini tapmış hədəflərin reallaşdırılması, ilk növbədə, mövcud insan resurslarının idarə edilməsi mexanizminin təkmilləşdirilməsini obyektiv zərurətə çevirmişdir.**

Sənəddə əksini tapmış tədbirlərin icrasının əlaqələndirilməsi nazirliyin İnsan resursları idarəsinə həvalə olunmuşdur. Eləcə də nazirliyin aidiyyəti struktur və bölmələrinin rəhbərlərinə planda nəzərdə tutulmuş tədbirlərin icrasını diqqətdə saxlamaq və görülmüş işlər barədə hər 6 aydan bir (növbəti ayın 20-dən gec olmamaqla) İnsan resursları idarəsinə məlumat vermək tapşırılmışdır. Həmin idarə isə 2015-ci il fevralın 20-dək planın icrası ilə əlaqədar görülmüş işlər üzrə yekun hesabat təqdim etməlidir.

«Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»nda, ümumilikdə, 6 istiqamət üzrə işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. «Vəzifə təlimatlarının hazırlanması» adlanan birinci istiqamət üzrə vergi orqanlarında mövcud vəzifələrin təlimatının hazırlanması, habelə vəzifə təlimatlarının Vergilər Nazirliyinin internet səhifəsində yerləşdirilməsi, AVİS-də vəzifə təlimatı üzrə bazanın yaradılması nəzərdə tutulur. Məqsəd insan resurslarının idarə edilməsi sahəsində (işə qəbul, peşəkarlığın və səmərəliliyin artırılması) şəffaflığın, obyektivliyin və peşəkarlığın artırılmasıdır.

Ötən illərdə insan resurslarının idarə edilməsi sahəsində dünyanın qabaqcıl ölkələrinin mütərəqqi təcrübəsi öyrənilmiş, bu məqsədlə vergi orqanı əməkdaşları müxtəlif ölkələrə ezam olunmuşlar. Ona görə də Tədbirlər Planında ikinci mühüm istiqamət kimi xarici ölkələrin vergi administrasiyalarında tətbiq olunan təcrübənin öyrənilməsi zərurəti önə çəkilmişdir. Bu məqsədlə xarici ölkələrə işgüzar (təcrübə mübadiləsi, seminar, konfrans, təlim və s.) səfərlərin təşkili davam etdiriləcəkdir.

Üçüncü istiqamət olaraq sənəddə vergi orqanı əməkdaşlarının peşəkarlığının artırılması nəzərdə tutulur. Bu məqsədlə əməkdaşların təlim ehtiyaclarının müəyyənləşdirilməsi mexanizminin yaradılması; ilkin hazırlıq və ixtisasartırma kurslarının proqramlarına xarici ölkələrin vergi təcrübəsi, idarəetmə mövzularının daxil edilməsi; nazirliyin Tədris Mərkəzində təşkil edilən kursların mənimsənilməsi səviyyəsinin müəyyən edilməsi üçün keçirilən imtahanlarda istifadə olunan sual bazasının yenidən qurulması; imtahanların AVİS-ə tam inteqrasiya edilməsi planlaşdırılır.

Vergi orqanı əməkdaşlarının etik davranış kodeksinə əməletmə səviyyəsinin yüksəldilməsi sənəddə dördüncü mühüm istiqamət kimi əksini tapmışdır. Bu məqsədlə ilkin hazırlıq və ixtisasartırma kurslarının dinləyicilərinə «Vergi işçisinin etik davranış kodeksi» və «Əmək qanunvericiliyi və insan resurslarının idarə edilməsi» mövzuları üzrə təlimlərin keçilməsi: hər bir vergi orqanı üzrə etik davranış mövzusunda təlimlərin təşkili: etik davranış mövzusunda illik hesabat iclasının keçirilməsi nəzərdə tutulur.

Tədbirlər Planında orta menecerlə iş beşinci mühüm istiqamət kimi önə çəkilmişdir. Bununla bağlı orta menecer (şöbə rəisi) vəzifələrinə təyin olunmaq üçün daxili müsahibə qaydalarının (mexanizminin) hazırlanması; təsdiq olunmuş qaydalar əsasında pilot layihənin tətbiq edilməsi (Bakı Şəhər Vergilər Departamenti); orta menecer vəzifələrinə təyin olunmaq üçün kadr ehtiyatının yaradılması üçün mexanizmin işlənib hazırlanması; orta menecerlərin idarəetmə sahəsi üzrə bilik və bacarıqlarının artırılması üçün təlimlərin təşkili nəzərdə tutulur. Bütün bunlarda məqsəd isə orta menecerlərin idarəetmə səviyyəsinin yüksəldilməsidir.

Nəhayət, sənəddə altıncı mühüm istiqamət kimi işə qəbulla bağlı keçirilən müsabiqələrin təkmilləşdirilməsi dayanır. Bu məqsədlə mövcud müsabiqə qaydalarına dəyişikliklər edilməsi yolu ilə ehtiyat kadrlarla aparılan işin dəqiq prosedurunun müəyyən edilməsi nəzərdə tutulur. Hesab olunur ki, bu, işə qəbul prosesində şəffaflığın və obyektivliyin daha da artırılmasına imkan verəcəkdir.

**Samir MUSTAFAYEV**

# Çağrı Mərkəzinə və rəsmi internet səhifəsinə edilən müraciətlərin statistikası

İl ərzində 238666 müraciət cavablandırılmış, vergi ödəyicilərinə 584387 mesaj göndərilmişdir. Daxil olmuş müraciətlərin 174090-ı canlı rejimdə müfəttiş-operatorlar, 64576-sı isə səsli menyu vasitəsilə elektron operator tərəfindən cavablandırılmışdır. Müfəttiş-operatorların cavablandırdıqları suallar arasında elektron xidmətlər (26,6%), vergi növləri (12,2%), qeydiyyat (11,2%), hesabatlar və onların doldurulma qaydaları barədə suallar (7,9%), səsli menyu vasitəsilə qəbul edilmiş müraciətlər arasında isə vergi növləri (44,7%) və dövlət büdcəsinə olan vergi borcları (29,4%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

Canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılmış müraciətlərin sayı 2012-ci ilə nisbətən 25,3% artmışdır. Vətəndaşlardan şikayət (ərizə) və məlumat xarakterli 1507 müraciət qəbul edilərək aidiyyəti üzrə göndərilmişdir.

Canlı rejimdə vergi ödəyicilərindən daxil olan sual xarakterli müraciətlərin 97,9%-i müfəttiş-operatorlar tərəfindən dərhal, 2,1%-i isə sual vərəqəsi tərtib edilərək araşdırıldıqdan sonra cavablandırılmışdır. Müraciətlərin 72,7%-i Bakı şəhərindən, 13,8%-i ölkənin müxtəlif bölgələrindən, qalanı isə mobil operatorlardan daxil olmuşdur.

2013-cü ildə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az) daxil olmaların ümumi sayı 3 milyon 456 min 151 olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 13,7% çoxdur. İnternet səhifəsinin «Sual-cavab» bölməsinə 2236 sual daxil olmuş və onların 96,6%-i qısa müddət (1-5 gün) ərzində cavablandırılmışdır.

Vergi ödəyicilərinin nəzərinə!
31 yanvar 2014-cü il tarixədək
muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin illik bəyannaməsi vergi orqanına təqdim olunmalıdır.
Azərbaycan Respublikası Vergilər Nazirliyi
www.taxes.gov.az • www.e-taxes.gov.az

# Vergi qanunvericiliyinə könüllü əməl edilməsi əsas prioritetlərdəndir



*Regionların sosial-iqtisadi inkişafı baxımından vergi ödəyicilərinə göstərilən xidmətlərin, onlarla aparılan işlərin əhəmiyyəti böyükdür. Nəzarət əhatəsində Abşeron və Sumqayıt kimi böyük sənaye zonası olan 2 saylı Ərazi Vergilər Departamentinin (ƏVD) rəisi Abbas İsmayılova ünvanladığımız sualların başlıca mövzusu da bu məsələ ilə bağlıdır.*

***- Abbas müəllim, 2 saylı Ərazi Vergilər Departamenti üçün 2013-cü ilin nəticələri necə oldu? Ötən il Departament qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gələ bildimi?***

- 2013-cü ilin mayında Vergilər Nazirliyinin əmri ilə vergi orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması və vergi inzibatçılığının gücləndirilməsi, proqnoz tapşırıqlarının vaxtında və tam həcmdə yerinə yetirilməsinin təmin olunması məqsədilə bir sıra vergilər idarələrində struktur dəyişikliyi edildi. Həmin dəyişikliklər çərçivəsində 2 saylı Ərazi Vergilər İdarəsinin bazasında 2 saylı Ərazi Vergilər Departamenti yaradıldı. Departament yaradıldıqdan sonra yeni strukturların işinin daha da aktivləşdirilməsi və digər məsələlər vacib vəzifələr kimi qarşımızda dururdu. Xüsusilə 2 saylı ƏVD-nin nəzarət dairəsində olan rayonlar üzrə müəyyən olunmuş vergi daxilolmalarının tam və vaxtında icra edilməsi ən önəmli vəzifələrdən idi. Hesablanmış vergilərin və vergi borclarının dövlət büdcəsinə ödənilməsi məqsədilə görülmüş tədbirlər nəticəsində 2013-cü ildə 115 mln. 751 min manat proqnoz tapşırığına qarşı 122 mln. 229 min manat (105,6%) vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur ki, bu da büdcəyə 6 mln. 478 min manat əlavə vəsaitin daxil olması deməkdir. Vergi daxilolmaları üzrə proqnoz tapşırıqları departamentin nəzarət dairəsində olan Sumqayıt şəhəri üzrə 100,4 %; Abşeron rayonu üzrə 118,8%; Siyəzən rayonu üzrə 100%; Xızı rayonu üzrə 100,4%; Şuşa rayonu üzrə 102,8%; Qubadlı rayonu üzrə 103,7%; Zəngilan rayonu üzrə 100,3% icra olunmuşdur.

Onu da vurğulamaq yerinə düşər ki, 2 saylı ƏVD-nin 2013-cü il üzrə vergi daxilolmaları proqnozu 2012-ci ilin proqnozu ilə müqayisədə 8,7% artmışdır. Departamentin proqnozunun 90,8%-ni təşkil edən Sumqayıt şəhəri və Abşeron rayonu yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclər ayrılmadan dotasiyasız işləyir.

***- Vergilərin dövlət büdcəsinə tam və vaxtında ödənilməsi üçün nəzarət tədbirlərinin nəticələrinin səmərəliliyi barədə nə demək olar?***

- Ötən il departament tərəfindən 281 səyyar vergi yoxlaması (o cümlədən 17 növbədənkənar) keçirilmiş, yoxlama ilə 4 mln. 986,4 min manat (3 mln. 403,6 min manat əsas, 1 mln. 582,8 min manat maliyyə sanksiyası) əlavə vəsait hesablanmışdır. Hesablanmış əlavə vəsaitdən 995,4 min manatın (656,6 min manat əsas, 338,8 min manat maliyyə sanksyası) alınması təmin edilmiş, xeyli və külli miqdarda vergiləri ödəməkdən yayınan 22 vergi ödəyicisi (3 mln. 931,9 min manat alınmamış vəsait, o cümlədən 2 mln. 714,0 min manat əsas, 1 mln. 217,9 min manat maliyyə sanksyası) barədə sənədlər hazırlanaraq Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə (VCİAD) göndərilmişdir.

Bəyannamələrin kameral yoxlanması şöbəsi tərəfindən 8579 vergi ödəyicisində 13 mln. 915,9 min manat kameral qaydada əlavə məbləğ hesablanmış, hesablanmış vəsaitin 4 mln. 649,3 min manatının (33,4%) alınması təmin edilmişdir. Bu dövrdə 5324 operativ vergi nəzarəti tədbiri keçirilmiş, həmin tədbirlər zamanı yol verilmiş qanun pozuntusuna görə 1 mln. 852,5 min manat cərimə məbləği (41,2 min manat inzibati cərimə, 1 mln. 811,3 min manat maliyyə sanksyası) tətbiq edilmiş və həmin məbləğin alınması təmin olunmuşdur.

***- Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, əhatə dairəsinin genişləndirilməsi istiqamətində departament tərəfindən hansı işlər görülür?***

- Bu gün Vergilər Nazirliyi tərəfindən aparılan vergi siyasətinin başlıca prinsiplərindən biri də vergilərin məcburi yığılmasından könüllü ödənilməsinə keçidin təmin edilməsidir. Vergilərin könüllü ödənilməsi o zaman yüksək səviyyədə təmin edilə bilər ki, vətəndaşlar vergilərin məqsəd və mahiyyəti, dövlətin və cəmiyyətin inkişafında rolu barədə aydın və mükəmməl bilgilərə sahib olsunlar. Şübhəsiz ki, bu, vergi maarifçiliyinin səmərəli şəkildə qurulması, vergi mədəniyyətinin formalaşdırılması sayəsində mümkündür.

Vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan ardıcıl və məqsədyönlü siyasətin davamı kimi, vergilər nazirinin 11 iyul 2013-cü il tarixli «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» ilə bağlı əmri çox əhəmiyyətlidir. Bu əmrə əsasən, vergi xidmətlərinin meyarlarının hər bir xidmət üzrə vahid standartları müəyyən edilmiş, bütün vergi orqanları tərəfindən standartlara riayət olunması bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Vergilərin hesablanması, bəyannamələrin düzgün tərtib edilməsi, ödəmələri nə zaman və hansı formada həyata keçirmək, vergi qanunvericiliyinin bu və ya digər normalarını necə müəyyən etmək, vergi güzəştlərindən istifadə vergi ödəyicilərinin tez-tez rastlaşdıqları çətinliklərdir. Vergi ödəyicilərinə xidmət şöbəsinin və xidmət mərkəzlərinin əməkdaşları tərəfindən vergi ödəyiciləri ilə işin düzgün təşkili, aparılan məlumat-izahat işləri onlara belə məsələlərin həllində köməklik etməklə yanaşı, büdcə yığımlarına da müsbət təsir göstərməkdədir.

***- Belə görünür ki, aparılan ardıcıl tədbirlər sayəsində borclu vergi ödəyicilərinin sayı azalmışdır...***

- Ötən il ərzində 2 saylı ƏVD-də qeydiyyatda olan 16401vergi ödəyicisində 16 mln. 798,6 min manat məbləğində borc yaranmış, 15792 vergi ödəyicisinin 10 mln. 396,3 min manat məbləğində borcu tam olaraq ləğv edilmişdir. 311 borclu vergi ödəyicisinin 506,4 min manat məbləğində əmlakları siyahıya alınmış, 74 vergi ödəyicisinin işi 2 mln. 592 min manat məbləğində xeyli və külli miqdarda vergiləri ödəməkdən yayınmaqla əlaqədar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir. Bundan başqa, 53,8 min manat məbləğində maliyyə sanksiyalarının ödənilməsinin təmin edilməsi məqsədilə 224 vergi ödəyicisi barəsində tələbin icraya yönəldilməsi haqqında qərar çıxarılaraq müvafiq icra şöbələrinə göndərilmiş, 17,8 min manat vergi borcu olan 14 vergi ödəyicisinin avtonəqliyyat vasitələrinə məhkəmə tərəfindən həbs qoyulmuş, borclu vergi ödəyicilərində 48 operativ vergi nəzarəti tədbiri keçirilmişdir. Aparılan işlər nəticəsində 2 saylı ƏVD üzrə 2013-cü ilin əvvəli ilə müqayisədə 2014-cü ilin əvvəlində vergi ödəyicilərinin borcu 8 mln. 176,3 min manat azalmışdır.

***- Regionlarda, konkret olaraq rəhbərlik etdiyiniz ƏVD-nin əhatə etdiyi rayonlarda vergi ödəyicilərinə göstərilən elektron xidmətlər haqqında nə deyə bilərsiniz?***

- Bu istiqamətdə işlər uğurla həyata keçirilir. Artıq vergi orqanları ilə vergi ödəyiciləri arasında bütün proseslər, əsasən, elektronlaşdırılmışdır və sahibkarlar vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı bütün prosesləri elektron formada həyata keçirirlər.

Vergi bəyannamələri və hesab-fakturaların elektron formata keçirilməsi, eləcə də «onlayn kargüzarlıq» sisteminin tətbiqi vergi orqanları əməkdaşları və vergi ödəyiciləri arasında maksimal şəffaflığa nail olmağa imkan vermişdir. Ümumiyyətlə, «Elektron hökumət» çərçivəsində təqdim olunan xidmətlərin sayına görə Vergilər Nazirliyi daha çox sayda elektron xidmət göstərən dövlət orqanıdır.

Bir faktı da qeyd etmək istərdim ki, 2 saylı ƏVD-də 2013-cü il ərzində 64716 vergi ödəyicisi bəyannamə təqdim etməli idi. Görülən işlərin nəticəsidir ki, 63167 bəyannamə vaxtında təqdim olunmuşdur (97,6%) və həmin bəyannamələrin 94,1%-i elektron formada göndərilmişdir (59445 bəyannamə).

***- Vergi ödəyicilərinin müraciət və şikayətlərinə baxılması necə təşkil edilir?***

- Bu məsələyə xüsusi həssaslıqla yanaşılır. Hər bir müraciət və ya şikayət ayrı-ayrılıqda diqqətlə araşdırılır və qanunamüvafiq tədbirlər həyata keçirilir. 2013-cü il ərzində 2 saylı ƏVD-yə 7840 müraciət daxil olmuşdur (bunlardan 7836-sı ərizə, 4-ü isə şikayət xarakterli idi). Bütün müraciətlər diqqətlə araşdırılaraq qanunamüvafiq tədbirlər görülmüş və bu barədə vergi ödəyicilərinə yazılı məlumatlar verilmişdir. 2013-cü il ərzində departamentin rəhbərliyi tərəfindən 64 vergi ödəyicisi qəbul olunmuşdur. Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin obyektiv həllinin tapılması üçün bütün imkanlardan istifadə edilmişdir.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

# D nya Bank texnoparklara investisiya qoyur

*Azərbaycanda həyata keçirilən sənaye texnoparkları layihəsi xarici investorların və beynəlxalq maliyyə təşkilatlarının da maraq göstərdiyi sahə hesab olunur. Layihənin tətbiqindən cəmi 2 il vaxt keçməsinə baxmayaraq, artıq Cənubi Koreya, Sinqapur, Yaponiya, Türkiyə və digər ölkələrin investorları Azərbaycanda bu sahənin maliyyələşdirilməsində yaxından iştirak etmək istədiklərini bildiriblər. Asiya İnkişaf Bankı (AİB) da yeni sənaye modelinin həyata keçirilməsində əsas donor kimi çıxış etmək niyyətini bəyan edib.*

Dünya Bankı (DB) «Balaxanı texnoparkı» layihəsində donor kimi iştirakla bağlı yekun qərar edib və artıq bu sahəyə 47 milyon dollar investisiya qoymaq barədə razılığa gəlinib. Azərbaycan hökuməti ilə DB arasında imzalanmış sazişə əsasən, 2014-2016-cı illəri əhatə edəcək investisiya paketi Balaxanıdakı «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsinin reallaşdırılmasına yönəldiləcək. Dünya Bankının Azərbaycan üzrə meneceri Larisa Leşenko bildirib ki, saziş çərçivəsində Balaxanı poliqonunun növbəti 20 il müddətinə istismarı məqsədilə beynəlxalq standartlara müvafiq qaydada tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarəçiliyi üzrə milli strategiya sənədinin qısa, orta və uzun müddətli tədbirlər planı layihələrinin hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur. İqtisadiyyat və Sənaye Nazirliyindən verilən məlumata görə, güclü texnopark kompleksləri şəbəkəsini genişləndirmək üçün regionlarda hər bir iqtisadi rayonun potensialı nəzərə alınmaqla xüsusi iqtisadi zonaların yaradılması və sənaye şəhərciklərinin salınması üçün müxtəlif iqtisadi təşviqedici addımların atılması planlaşdırılır. Bu məqsədlə yaxın perspektivdə sənayeləşmənin bir çox sahələrinin, o cümlədən texnoparkların yüksək inkişafına impuls vermək və bu sahəyə xarici investorları cəlb etmək məqsədilə bir sıra stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2013-cü ilin yanvarından etibarən sənaye texnoparklarına vergi güzəştləri tətbiq olunur.

**ELBRUS**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Rakurs

# Vergi inzibatçılığı və onun mahiyyəti

Müasir dövrdə dövlətin qarşısında duran əsas vəzifələrdən biri büdcəyə və büdcədənkənar fondlara vergilərin, rüsum və yığımların lazım olan həcmdə daxil olmasını təmin etməkdir. Vergilərin və digər icbari ödənişlərin tam və vaxtında xəzinəyə ödənilməsini təmin edən sistemin yaradılması dövlətin dayanıqlı və etibarlı maliyyə təminatı sisteminə malik olması deməkdir. Bunlara nail olunması isə vergi inzibatçılığının qarşısında duran əsas vəzifələrdən biri hesab olunur.

Vergi inzibatçılığı ölkənin vergi sisteminin səmərəli fəaliyyətini təmin edən əsas elementlərdəndir. Vergi inzibatçılığı dedikdə, ilk növbədə, vergilərin tam və vaxtında dövlət büdcəsinə ödənilməsinə nəzarəti həyata keçirən səlahiyyətli dövlət orqanlarının fəaliyyəti nəzərdə tutulur. Vergi nəzarətini həyata keçirən orqanların fəaliyyəti vergi proseslərinin tərkib hissəsi olmaqla vergi öhdəliyi daşıyan təsərrüfat subyektlərinin normal fəaliyyətinin təmin edilməsinə yönəldilən hərəkətlərin məcmusudur. İnzibatçılığın əsas məqsədi vergi münasibətlərinin hər bir iştirakçısının, o cümlədən ödəyicilərin, vergi agentlərinin və vergi orqanlarının normal fəaliyyətinin təşkilinə, hüquqlarının qorunmasına yönəldilən vergi siyasətinin həyata keçirilməsinin təmin olunmasından ibarətdir.

*Vergi inzibatçılığının təşkili və həyata keçirilməsi qanunilik, qanun qarşısında bərabərlik, şəffaflıq, vergi öhdəliklərinin könüllü yerinə yetirilməsi, hüquqların qorunması, səmərəlilik, vergi sirrinin qorunması, hüquqi məsuliyyətin qaçılmazlığı prinsipləri əsasında həyata keçirilir*

Vergi inzibatçılığı geniş anlayış olmaqla özündə vegitutmanın əsas elementlərini birləşdirir: vergi sisteminin təşkili prinsipləri, ödəyicilərin hüquq və vəzifələri, vergi orqanlarının hüquq və vəzifələri, nəzarətin forma və prosedurları, hüquqpozmalara görə məsuliyyət, vergi orqanlarının qərarlarından şikayətin verilməsi, ödəyicilərin uçotu, vergi daxilolmalarının və vergi borclarının uçotu, məlumatlandırma və maarifləndirmə, vergi inzibatçılığının elektronlaşdırılması və elektron xidmətlərin təşkili.

İlk baxışdan vergi inzibatçılığı ənənəvi inzibatçılıq fəaliyyətinə oxşar olsa da, onun özünəməxsus xüsusiyyətləri vardır. Adətən, inzibatçılıq fəaliyyəti hakimiyyətin gücünə əsaslanan fiziki, təşkilati və digər inzibati tədbirlərin görülməsini əhatə etdiyi halda, vergi inzibatçılığı təsərrüfat subyektlərinə hakimiyyət gücü tətbiq olunmadan səlahiyyətli orqanlar tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin həyata keçirirlməsini nəzərdə tutur. Bunun müqabilində isə qarşı tərəflər üçün onlardan tələb olunan vəzifələrin yerinə yetirilməsinə şərait yaradılır.

Ümumiyyətlə, iqtisadi nəzəriyyədə vergi inzibatçılığı anlayışına ikili yanaşma mövcuddur. Bir yanaşmaya əsasən, vergi inzibatçılığına bu sahədə fəaliyyət göstərən inzibatçı orqanların sistemi kimi, digərinə əsasən isə vergitutma mexanizmini tənzimləyən norma və qaydaların məcmusu kimi baxılır.

Qeyd olunan yanaşmalar vergi inzibatçılığının müəyyən mənada bu və ya digər aspektlərini əks etdirsə də, onu tam və mükəmməl xarakterizə edə bilmir. Əslində, vergi inzibatçılığı bazar münasibətləri şəraitində dinamik inkişaf edən vergi münasibətlərinin tənzimlənməsi üçün makro və mikro səviyyədə mürəkkəb və çoxşaxəli funksiyaları yerinə yetirir.

Vergi inzibatçılığının makroiqtisadi səviyyədə həyata keçirilməsi, əsasən, aşağıdakıları nəzərdə tutur:

- vergi prosesləri təhlil edilməklə vergi mühitinin qiymətləndirilməsi və stimullaşdırma mexanizminin müəyyən olunması;
- vergi potensialının qiymətləndirilməsi, dövlət xəzinəsinə maksimal səviyyədə səfərbər olunmasının təmin edilməsi;
- vergi qanunvericiliyinin təkmilləşdirilməsi konsepsiyasının hazırlanması;
- vergi inzibatçılığının səmərəliliyinin ölkə səviyyəsində təmin edilməsi.

Vergi münasibətlərinin mikro səviyyədə idarə olunması vergitutma sahəsində qəbul olunmuş qanunvericilik aktlarının tətbiqinin təmin edilməsini, vergilərin vaxtında və tam həcmdə səfərbər olunması üçün yerli vergi orqanlarının fəaliyyətinin təşkilini nəzərdə tutur.

Beynəlxalq təcrübədə vergi inzibatçılığının həyata keçirilməsinin üç əsas metodu mövcuddur: vergi planlaşdırılması, vergi tənzimlənməsi və vergi nəzarəti. Hər bir metod özünəməxsus formada həyata keçirilərək konkret vəzifələrin, o cümlədən vergi öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsinə, vergi siyasətinin həyata keçirilməsinə, vergi intizamının gücləndirilməsinə, vergi münasibətlərinin tənzimlənməsinə yönəldilmişdir. Vergi inzibatçılığının təşkili və həyata keçirilməsi qanunilik, qanun qarşısında bərabərlik, şəffaflıq, vergi öhdəliklərinin könüllü yerinə yetirilməsi, hüquqların qorunması, səmərəlilik, vergi sirrinin qorunması, hüquqi məsuliyyətin qaçılmazlığı prinsipləri əsasında həyata keçirilir.

Dünya iqtisadiyyatında gedən qloballaşma prosesləri, kapitalın və əqli mülkiyyət hüququnun sərbəst yerdəyişməsi, elektron kommersiyanın geniş tətbiqi, elektron xidmətlərin sürətlə yayılması vergi orqanları qarşısında tamamilə yeni xarakterli problemlər qoyur. Təbii ki, bu problemlərin vergi inzibatçılığının ənənəvi üsulları ilə səmərəli həll edilməsi qeyri-mümkündür.

Qeyd olunan problemlərin həlli isə səmərəli vergi nəzarəti sisteminin yaradılmasını, transfert qiymətqoymanın tənzimlənməsini, konsolidə olunmuş vergi ödəyiciləri qrupunun tətbiqini, elektron xidmətlərin genişləndirilməsini, vergi münasibətlərinin partnyorluq prinsipləri əsasında qurulmasını təmin edən vergi inzibatçılığı sistemi yaradılmaqla həyata keçirilə bilər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2013-cü ildə pərakəndə ticarət subyektlərində istehlakçılara **19,7 milyard** manatlıq və ya 2012-ci il ilə müqayisədə **9,9%** çox əmtəə satılmışdır. İstehlak mallarının **51,7%-ni** ərzaq, **48,3%-ni** qeyri-ərzaq malları təşkil etmiş, qeyri-ərzaq məhsullarının xüsusi çəkisi 3,7 faiz bəndi artmışdır.
- Ötən il Azərbaycan iqtisadiyyatına **28 milyard ABŞ dolları** məbləğində investisiya qoyulmuşdur.
- Yanvarın 1-nə olan məlumata görə, ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı **1milyon 647 min 906-a** çatmışdır.

# Valyuta ehtiyatlarımız artır

*«Bizim valyuta ehtiyatlarımız rekord həddə çatıb. Mən dəfələrlə demişəm, yenə də qeyd etmək istəyirəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artmalıdır və artır. Son illər ərzində elə bir il olmamışdır ki, valyuta ehtiyatlarımız aşağı düşsün. Baxmayaraq ki, çoxlu investisiya layihələri icra edilir, keçən il də artmışdır. Hazırda Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatmışdır. Bu da ümumi daxili məhsulun 70 faizini təşkil edir. Dünya miqyasında bu göstəriciyə görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Bunu biz yaratmışıq, bunu bizim siyasət, bizim iqtidar yaradıbdır. Bu, Azərbaycanın böyük üstünlüyüdür, bizə əminlik, inam və imkan verir ki, bundan sonra da ölkəmizin inkişafı ilə bağlı böyük layihələri icra edək».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Həm yerli, həm də beynəlxalq maliyyə institutlarının ekspertlərinin qənaətinə görə, yaxın illərdə Azərbaycanın valyuta ehtiyatları 100 milyard dolları keçəcək. Azərbaycanın strateji valyuta ehtiyatları Mərkəzi Bankın vəsaitləri, Neft Fondunun aktivləri və hökumətin müxtəlif depozitlərindən ibarətdir.*

Hazırda Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2,457 milyon ABŞ dolları artaraq 14 milyard ABŞ dollarını ötmüşdür. Bu, 2012-ci illə müqayisədə təxminən 21% artım deməkdir. 2012-ci il ərzində Mərkəzi Bankın valyuta ehtiyatlarının həcmi 1,213 milyard dollar və ya 11,6% artıb. Orta hesabla həmin il artım ayda 101 milyon dollar olub, 2013-cü il üzrə isə bu göstərici 204,77 milyon dollara çatıb.

Dövlət Neft Fondunun aktivləri isə 36 milyard ABŞ dolları civarındadır. Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan təxminən 10 dəfə çoxdur. Xarici borc ümumi daxili məhsulun 8%-i qədərdir.

Həm Dünya Bankının, həm də Beynəlxalq Valyuta Fondunun hesabatlarında bildirildiyi kimi, Azərbaycan hökuməti strateji valyuta ehtiyatlarının idarə olunması istiqamətində çevik siyasət yürütməkdədir. Bu siyasət dünya maliyyə böhranının davam etdiyi dövrdə böyük valyuta rezervlərinə malik ölkə üçün böhranın hər hansı təsirini tamamilə məhdudlaşdırmaq iqtidarında olmuşdur. Beynəlxalq maliyyə institutları Azərbaycanda dərin makroiqtisadi təməllərin yaradıldığını, maliyyə sabitliyinin möhkəmləndirilməsi istiqamətində çevik iqtisadi addımların atıldığını, ümumilikdə valyuta bazarının bütün seqmentlərində inkişaf templərinin müşayiət olunduğunu bəyan etmişlər. Bu tendensiya valyuta rezervlərinin artması ilə bərabər, həm də manatın aktiv pul aləti kimi çəkisinin artırılmasına təkan vermişdir.

Respublikamızın valyuta sərvətlərinin artması beynəlxalq maliyyə bazarlarında idarəetməyə verilən aktivlərin əhəmiyyətli dərəcədə yüksəlməsinə də baza yaratmışdır. Azərbaycan hökuməti valyuta portfelindəki rezervlərin bir hissəsini dünya maliyyə strukturlarında yerləşdirərək beynəlxalq idarəetməyə vermişdir. Hazırda Mərkəzi Bankın və Dövlət Neft Fondunun valyuta vəsaitlərinin bir hissəsi xarici maliyyə təşkilatlarında saxlanılır. Hökumətin həyata keçirdiyi bu siyasətin əsas elementləri həmin vəsaitlərin maksimum gəlir gətirən bölmələrdə yerləşdirilməsini təmin etməkdir. Yəni strateji valyuta ehtiyatlarının artmasında və ölkəmizin maliyyə imkanlarının yaxşılaşmasında vəsaitlərin idarə olunması ən perspektivli və yüksək gəlir gətirən sahə hesab olunur. Təkcə ötən il valyuta ehtiyatlarının idarə edilməsindən yarım milyard dollardan çox vəsait əldə olunmuşdur.

Proqnozlara görə, ölkəmiz idarəetməyə verilən vəsaitlərdən yaxın gələcəkdə hər il milyard dollardan çox dividend əldə edə biləcək. Bu gün həm Mərkəzi Bankın, həm də Dövlət Neft Fondunun vəsaitləri dünyanın tanınmış maliyyə təşkilatlarında - Dünya Bankı, Doyçe Bank, Klarden Li və digər nüfuzlu maliyyə institutlarında idarəetməyə verilib.

**Rəşad SADIQOV**

# «ASAN xidmət» mərkəzlərində ödənişlər əsasən nağdsız qaydada həyata keçirilir

*Fəaliyyətə başlamasından bir il vaxt ötməsinə baxmayaraq, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») ölkəmizdə elektron xidmətlərin və yeni innovativ vasitələrin tətbiq olunmasında özünəməxsus rolu ilə fərqlənir.*

«ASAN xidmət» mərkəzləri dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası və elektron xidmətlərin təşkili prosesinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətini gücləndirib. Ötən ilin ortlarından başlayaraq, bu xidmət vasitəsilə elektron ödənişlərin həyata keçirilməsinə başlanılıb.




Təcrübə göstərir ki, «ASAN xidmət» mərkəzləri dövlət qurumlarına ödənilən müxtəlif təyinatlı rüsumların elektron qaydada həyata keçirilməsi üçün ən rahat və etibarlı ünvan, vasitədir. «Dövlət rüsumu haqqında» Qanuna əsasən, bütün dövlət qurumları və xidmət müəssisələri, icra orqanları tərəfindən müəyyən olunmuş rüsumların, ödənişlərin, vergilərin, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı lisenziyaların alınmasına görə ödənilməli olan vəsaitlər nağdsız yolla aparılmalıdır. Hazırda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, notariat fəaliyyəti, şəxsiyyət və sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, əmək pensiyalarının təyin edilməsi, kommersiya hüquqi şəxslərin qeydiyyatı və digər xidmətlərlə bağlı rüsumların ödənilməsi bu qurumun səlahiyyətlərinə aiddir. Beləliklə, «ASAN xidmət» mərkəzləri nağdsız hesablaşmaların həcminin artmasında mühüm bir qurum olmaqla şəffaflığın bariz nümunəsinə çevrilməkdədir.

Azərbaycan dövləti nağdsız ödənişlərin genişlənməsini korrupsiyaya qarşı təsirli mübarizə vasitələrinin əsas tərkib hissəsi kimi görür və «ASAN xidmət» mərkəzlərinin nağdsız əməliyyatlarda rolunun artması bu tədbirlərin uğurlu nəticələr verməsində mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev həmin xidmətin bu prosesdəki rolunun əhəmiyyətinə toxunaraq bildirib ki, korrupsiyaya və rüşvətxorluğa qarşı aparılan çox ciddi mübarizə tədbirlərinin yaxşı nəticələri vardır: «Keçən ilin əvvəlində «ASAN xidmət»in fəaliyyətə başlaması bu sahədə böyük bir dönüş yaratdı, bir yenilik gətirdi. «ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycan ixtirasıdır, Azərbaycan brendidir. Qısa müddət ərzində yüz minlərlə insan bu xidmətə müraciət etmişdir. Bu günə qədər eşitməmişəm ki, hər hansı bir şikayət və ya narazılıq olsun. Bütün xidmətlər şəffaf, mədəni şəkildə göstərilir. «ASAN xidmət»də göstəriləcək xidmətlərin sayı artırılmalıdır və bu il regional mərkəzlər də yaranmalıdır».

Ölkədə nağdsız cəmiyyətin formalaşdırılması tədbirləri çərçivəsində əsas layihələrdən biri dövlət rüsumlarının və digər ödənişlərin mərkəzləşdirilmiş qaydada «bir pəncərə» sistemi ilə aparılması olacaq. Bunun ən yaxşı və təsirli, şəffaflığa şərait yaradan mexanizmi kimi regionlarda «ASAN xidmət» mərkəzlərinin yaradılmasının sürətləndirilməsi vacib hesab olunur. Ödənişlərin elektronlaşdırılması sistemi dövlət-biznes münasibətlərinin minimuma enməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyat və Sənaye Nazirliyinin hazırladığı Dövlət İnvestisiya Proqramında «ASAN xidmət» modeli də yer alacaq və bu qurumun regionlardakı şəbəkəsinin genişlənməsi üçün sərmayə qoyuluşları artırılacaq. Eyni zamanda, həm də qurumun səlahiyyətlərinin artırılması nəzərdə tutulur. Yaxın vaxtlarda tikinti, nəqliyyat, səhiyyə, sosial müdafiə, daşınmaz əmlak, biznes, sahibkarlıq və digər sahələrə aid rüsum və ödənişlərin də «ASAN xidmət»ə inteqrasiyası mümkün olacaq. Məqsəd respublikanın bütün bölgələrində rahat və şəffaf xidmət sistemini qurmaqdır.

**Elbrus CƏFƏRLİ**

# «İKT ili»nə yekun vuruldu

*2013-cü il ölkəmizdə «İnformasiya-kommunikasiya texnologiyaları ili» (İKT) elan edilməsi ilə yadda qaldı. İl ərzində İKT sahəsinin inkişafı üzrə mühüm addımlar atılmış, İKT sektorunun artım tempi ənənəvi olaraq ümumdünya orta göstəricisini təxminən iki dəfə üstələyərək 14% təşkil etmiş, sahə üzrə ümumi gəlirlər 2 milyon dollardan artıq olmuşdur.*

Görülən işlər barədə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında hesabat verən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bildirmişdir ki, «İKT ili» ilə əlaqədar Milli Elmlər Akademiyası və digər aidiyyəti qurumlarla birlikdə həyata keçirilən tədbirlər planı bütün bəndlər üzrə yerinə yetirilmişdir. Tədbirlər planı çərçivəsində həm infrastruktur və istehsal layihələri, həm maarifləndirmə, elmi-texniki konfrans, forum və sərgilər, həm də onlayn kütləvi aksiyalar həyata keçirilmişdir.

Telekommunikasiya sahəsində stasionar telefon şəbəkəsi genişlənərək regionda müasirliyi, keyfiyyəti, əhatə dairəsi və qiymət göstəricilərinə görə ön cərgədə yer tutmuş, mobil telefon şəbəkəsi əhali və ərazi əhatəsinə görə daha da genişlənmiş və orta Avropa səviyyəsindən yüksək olmuşdur: «Dünyanın bir çox ölkələrində 2-ci nəsil rabitə texnologiyası tətbiq edildiyi halda, ölkəmizdə 3-cü nəsil texnologiya tətbiq olunur, Bakı və Abşeronda isə artıq 4-cü nəsil rabitə texnologiyalarının tətbiqinə başlanılmışdır. Bununla yanaşı, mobil nömrələrin operatorlar arasında avtomatik daşınma sistemi də yaradılmışdır».

Qlobal internet şəbəkəsinin Azərbaycan seqmenti inkişaf etmiş, ölkəmiz 70% istifadə sıxlığı ilə MDB və Mərkəzi Asiyada öz liderlik yerini saxlamış, internet üzərində işgüzarlıq fəaliyyəti sürətlənmişdir. 2013-cü ildə beynəlxalq şəbəkəyə çıxış 35%, ölkədaxili elektron kontent təxmini hesablamalara görə 40-45%, elektron kommersiya və pərakəndə satış 50% artmışdır. Mobil və stasionar genişzolaqlı internetin abonent şəbəkəsi 30% böyümüşdür.

Hesabat ili radio və televiziya texniki yayım infrastrukturunun inkişafında rəqəmli efirə keçidlə yadda qalmışdır: ölkə əhalisinin 95-98%-i rəqəmli televiziya ilə əhatə olunmuşdur və bu texnoloji göstərici üzrə Azərbaycan inkişaf etmiş ölkələr sırasında yer almışdır.




Sərhəd zonalarda qonşu ölkələrdən efirə müdaxilələrin qarşısının alınması üçün ötən il üç güclü stansiya quraşdırılmışdır.

İl ərzində poçt sektorunun gəlirləri 5,5% artmış, poçt sistemində ənənəvi xidmətlərdən əlavə, bank və maliyyə xidmətləri, o cümlədən bank hesablarının idarə olunması, nağdsız ödəmələr, pul köçürmələri, kommunal və digər ödənişlərin həyata keçirilməsi, ucqar kəndlərdə pensiyaların paylanması, ümumiyyətlə, depozit və kreditlər istisna olmaqla, bütün xidmətlərin göstərilməsi xeyli genişləndirilmişdir. Poçt vasitəsilə elektron kommersiya xidmətlərinin, eləcə də ucqar kəndlərdə xidmətlərin mobil avtomobillər vasitəsilə göstərilməsinə başlanılmışdır. «Elektron hökumət» portalı vasitəsilə elektron xidmətlərin əhatə dairəsi genişlənmiş, portala yeni xidmətlər əlavə olunmuşdur. Beləliklə, Nazirlər Kabinetinin təsdiq etdiyi 428 xidmətdən 281-i hökumət portalı vasitəsi ilə göstərilir. 2013-cü ildə portala 262 min vətəndaş müraciət etmiş, 730 mindən çox elektron xidmət alınmışdır.

Hesabat ilində Vergilər Nazirliyinin «ASAN mobil imza» sertifikat mərkəzi yaradılmış və ölkənin vahid elektron imza sisteminə qoşulmuşdur. «Azərspace-1» telekommunikasiya peyki orbitə çıxarılmış və 2013-cü ilin iyul ayından kommersiya fəaliyyətinə başlamışdır. Peykdə hazırda 60-dan çox televiziya kanalının, əsasən xarici ölkələrin və müxtəlif rabitə kanallarının təşkili həyata keçirilir. 6 ay ərzində təxminən 10 milyon ABŞ dolları həcmində xarici ölkələrə ixrac xidmətləri göstərilmiş və bu vəsait «Azərkosmos ASC» tərəfindən Maliyyə Nazirliyinin nəzarəti ilə 2013-cü ilin kredit borclarının təxminən 60-65%-nin ödənilməsinə yönəldilmişdir. Peyklərin yerüstü idarəetmə üzrə əsas və ehtiyat mərkəzləri yaradılaraq yerli mütəxəssislər tərəfindən idarə olunur. 2016-cı ilə planlaşdırılan Yer səthinin monitorinqi peykinin layihə sənədləri və hazırlıq işləri başa çatmışdır və yaxın vaxtlarda tender elan olunacaqdır. 2017-ci ildə orbitə çıxarılması planlaşdırılan növbəti telekommunikasiya peykinin layihələndirilməsi üzrə işlər davam etdirilmişdir.

Hesabat ilinin nəticələrinə görə, gələcək 5 ilin əsas hədəfləri təyin edilmişdir. Bunların içərisində şəbəkə infrastrukturunun inkişafı sahəsində 2017-ci ilin sonuna mobil və stasionar şəbəkələr üzərində yüksəksürətli genişzolaqlı optik və simsiz şəbəkələrin qurulması və hər bir vətəndaş, iş və ev təsərrüfatının bu şəbəkəyə çıxışını təmin etmək; həmçinin radio-televiziya şəbəkələrində bütün növ rəqəmli yayım texnologiyalarının tətbiqini genişləndirərək hər bir vətəndaşa çatdırmaq; rəqəmli iqtisadi sektorun inkişafında yüksək texnologiyalara əsaslanan elektronika və nanoelektronika, kosmik peyklər və yeni informasiya texnologiyalarının tətbiqi ilə ixrac potensialının gücləndirilməsinə yönələn innovativ və rəqabətədavamlı məhsul və xidmətlərin istehsalını təmin etmək; regional və beynəlxalq səviyyədə informasiya və tranzit xidmətlərini genişləndirmək, müvafiq təhlükəsizlik strukturları ilə birlikdə kibertəhlükəsizliyi möhkəmləndirmək; müvafiq hökumət strukturları ilə əhali və sahibkarlara göstərilən dövlət xidmətlərini elektronlaşdırmaq və «Elektron hökumət» portalı vasitəsilə yerlərə çatdırılmasını sürətləndirmək əsas vəzifələrdəndir.

**A.NƏBİYEVA**

# Əmanətlər sahiblərinə çatdırıldı

*Keçmiş SSRİ Əmanət Bankının əmanətçilərinə Azərbaycanda 597 milyon 414 min manat vəsait ödənilmişdir*

Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 14 mart tarixli fərmanına əsasən, keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödənişlərin verilməsinə həmin il iyunun 1-dən başlanılmışdır. Bu işdə keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının hüquqi varisi olan «Kapital Bank» Açıq Səhmdar Cəmiyyətinə müvəkkil bank səlahiyyəti verilmiş, əmanətlərin qaytarılması prosesi 1 il 7 ay ərzində həyata keçirilmişdir. Fərdi birdəfəlik ödənişləri almaq üçün müraciətlərin qəbulu 7 ay ərzində (2012-ci ilin iyun-dekabr ayları) həyata keçirilmiş, ortaya çıxan bütün araşdırmaların aparılması, problemli ərizələrin baxılması, vərəsəliklə bağlı müddətlərin uzadılması səbəbindən gecikdirilən ödəmələrin verilməsi və s. məsələlərin həll olunmasına isə əlavə 1 il vaxt ayrılmışdı.

Birdəfəlik ödəmələrin verilməsində vətəndaşların problemlərlə üzləşməmələri üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir. Əmanətçilər üçün www.maliyye.gov.az və www.kapitalbank.az ünvanında onlayn kalkulyator, onlayn müraciət, qaynar xətt xidmətinin nömrəsi, kassaların dislokasiyası, ərizə formaları əks olunmuşdur. Bank tərəfindən 144 məntəqə yaradılmışdır. Bundan başqa, itmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə Bakıda üç, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hərəsində bir əlavə məntəqə təşkil edilmiş, digər rayon və şəhərlərdə bu qəbildən olan müraciətlər «Kapital Bank»ın yerli filiallarında qəbul edilmişdir.

Yaranmış mübahisəli məsələlərə baxılması, müvafiq qərarların qəbul edilməsi və bu işlərə ümumi nəzarətin həyata keçirilməsi məqsədilə Maliyyə Nazirliyinin nəzdində Xüsusi Komissiya yaradılmışdır. Komissiyanın qərarları əsasında 108.176 əmanət hesabı üzrə itirilmiş və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşmüş əmanət kitabçasını əvəz edən sənəd verilmişdir. Xüsusi Komissiyaya daxil olmuş 5 minə yaxın ərizə, 1200-ə yaxın elektron müraciət, komissiyanın «qaynar xətt»inə edilmiş 30 mindən artıq müraciət operativ şəkildə araşdırılaraq cavablandırılmışdır.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, 2012-ci il iyunun 1-dən başlanılmış fərdi birdəfəlik ödəmələrin verilməsi prosesi ötən il uğurla başa çatdırılmışdır. 1 milyon 622 min 687 əmanət hesabının sahiblərinə 597 milyon 414 min manat vəsait ödənilmişdir. Ekspertlərin rəyinə görə, SSRİ dövründən qalan bank əmanətlərinin qaytarılması problemi ilə bağlı Azərbaycanda MDB ölkələri arasında ən iri həcmli və çevik mexanizm tətbiq edilmişdir. 1992-ci ilədək əmanət şəklində keçmiş SSRİ Əmanət Bankında saxlanılan hər 1000 sovet rubluna görə Azərbaycanda 190 dollar ödənilmişdir ki, bu da MDB ölkələri arasında ən yüksək göstəricidir.

Nazirlikdən bildirilir ki, 2012-ci il 31 dekabr tarixinədək müraciət edən vətəndaşların mütləq əksəriyyəti birdəfəlik ödəniş ilə təmin edilmişdir.

**AYTƏN**

# Sənayeləşmədə keyfiyyətcə yeni mərhələ başlayır

*Nazirlər Kabinetinin son iclasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə Azərbaycanda sənayeləşmə prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu söyləmək mümkündür. Qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artmasında bu sahənin müstəsna rolunu önə çəkən Prezident İlham Əliyev cari ildə sənayenin yeni istiqamətlərinin inkişafı üçün tədbirlər planının təsdiq ediləcəyini bildirib.*

Prezident İlham Əliyevin 2014-cü il 10 yanvar tarixli «2014-cü ilin Azərbaycan Respublikasında «Sənaye ili elan edilməsi haqqında» sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir. Sərəncamda vurğulanır ki, hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruridir.

Sərəncamla Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə 2014-cü ilin Azərbaycan Respublikasında «Sənaye ili» elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb. Bundan başqa, Nazirlər Kabineti «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nın layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Nazirlər Kabinetinin son iclasında «Bu istiqamətdə artıq ilkin nəticələr vardır. Sumqayıt Texnoparkı fəaliyyət göstərir. Yeni Kimya Texnologiya Parkı artıq fəaliyyətə başlayır. Digər şəhərlərdə, Mingəçevirdə texnoparkın yaradılması nəzərdə tutulur. Balaxanı Texnoparkının yaradılması prosesi gedir. Bu istiqamətdə bu il daha da ciddi addımlar atılmalıdır. Ümumiyyətlə, mən dəfələrlə demişəm ki, bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir. Ümumi daxili məhsulumuzun artımı da sənaye istehsalının hesabına mümkün olacaqdır» - deyən ölkə başçısı bu il metallurgiya sənayesinin inkişafının da xüsusi diqqət mərkəzində olacağını vurğulayıb.

İqtisadçı ekspertlər Azərbaycanın iqtisadi cəhətdən inkişafında, yeni iş yerlərinin yaradılmasında, ölkənin ixrac potensialının gücləndirilməsi və idxaldan asılılığının azaldılmasında sənaye potensialının əhəmiyyətini xüsusi vurğulayırlar. Hesab olunur ki, inkişafın hazırkı mərhələsində yüksək makroiqtisadi göstəricilərin davamlılığının təmin edilməsi həm də rentabelli sənaye müəssisələrinin yaradılmasından asılıdır. Azərbaycanın davamlı inkişafını elmtutumlu sənaye müəssisələrinin açılması hesabına təmin etmək, eləcə də neft hasilatının azalması ilə bağlı maddi itkiləri kompensasiya etmək mümkündür. Odur ki, respublikanın bu sahədə sovet dövründə mövcud olmuş potensialının bərpası, ayrı-ayrı sənaye sahələri üzrə ixtisaslaşmış istehsal müəssisələrinin müasirləşdirilməsi, texnoloji parkların yaradılması son illərdə qarşıda ciddi vəzifələr kimi müəyyənləşdirilib.

Sənayenin inkişafının müasir innovasiyalar əsasında təmin olunması, texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da öz əksini tapıb. Sənəddə 2020-ci ilədək respublikanın tarixi ənənələri olan iri şəhər və rayonlarında yeni sənaye istehsalı müəssisələrinin yaradılması və həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin yaradılması qarşıya məqsəd qoyulub. Konsepsiyanın əhatə etdiyi dövrdə xüsusi iqtisadi zonaların yaradılması və iqtisadi potensial nəzərə alınmaqla Sumqayıtda neft-kimya, Balaxanıda məişət tullantılarının emalı, Gəncədə metal (alüminium) məmulatların istehsalı üzrə sənaye şəhərciklərinin qurulması nəzərdə tutulub. Qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin - kimya, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti və aqroemal sənayesinin və s. inkişafı və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması da dəstəklənir.






Sənayenin inkişafı üçün ölkədə müvafiq qanunverici bazanın formalaşdırılması da diqqət mərkəzində saxlanılır. 2009-cu il 14 aprel tarixli «Xüsusi iqtisadi zonalar haqqında» Qanun ölkədə sənayeləşmə prosesinin sürətlənməsinə yeni təkan verib. Dövlət başçısının 24 aprel 2013-cü il tarixli fərmanı ilə «Sənaye parkları haqqında Nümunəvi Əsasnamə»nin təsdiq edilməsi nəticəsində sənaye parklarının yaradılması, idarə edilməsi, habelə onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin hüquqi bazası formalaşdırılıb.

Ümumilikdə, yeni sənaye sahələrinin yaradılmasına göstərilən diqqətin nəticəsi olaraq, son 10 ildə qeyri-neft sənayesi 2,7 dəfə artıb. Respublikanın qara, əlvan və nadir metal filizləri ilə zəngin olması metallurgiyanın, hazır metal məmulatlarının, maşınqayırma və digər əlaqəli sahələrin inkişafına imkan verir. Qarşıdakı illərdə Gəncə şəhərində dəmirin birbaşa reduksiyası, poladəritmə və pellet zavodlarından ibarət metallurgiya kompleksinin inşası nəzərdə tutulur. Bundan əlavə, həmin regionda əlvan və qiymətli metalların - qızıl, gümüş və mis hasilatı ilə məşğul olan daha bir müəssisənin işə salınması gözlənilir.

Sumqayıt şəhərinin sənaye zonasında Kimya Sənaye Parkının yaradılması ölkənin qeyri-neft sənayesinin inkişaf etdirilməsi baxımından ən ciddi layihələrdən biridir. Parkın yaradılmasında məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Magistral və dəmiryol xətlərinin Sumqayıt Kimya Sənaye Parkına yaxın olması, şəhərcikdə yerləşəcək emal müəssisələrinin müasir və dünya standartlarına cavab verən texnoloji avadanlıqlarla, xammal və yarımfabrikat məhsullarla təmin edilməsi, son məhsulun Azərbaycanda istehsalı ölkə iqtisadiyyatının inkişafı üçün yeni perspektivlər açır.

Yüksək Texnologiyalar Parkı isə informasiya-kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatların aparılması, yeni və yüksək texnologiyaların hazırlanması baxımından mühüm əhəmiyyətə malikdir. Burada texnoloji nailiyyətlərə əsaslanan informasiya-kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması, yeni informasiya texnologiyalarının işlənilməsi üzrə müasir komplekslərin yaradılması nəzərdə tutulub.

Hökumət sənayenin inkişafını stimullaşdıracaq tədbirləri də diqqət mərkəzində saxlayır. Orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəştləri nəzərdə tutulmuşdur. 2013-ü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş əlavə və dəyişikliklər iqtisadiyyatın inkişafına müsbət təsir göstərməklə, bu sahəyə investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli, elmtutumlu sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin açılmasına imkan verir.

Həyata keçirilən tədbirlər artıq müsbət nəticələrin əldə olunmasına imkan yaradır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2013-cü ilin yanvar-noyabr aylarında ümumi daxili məhsul 2012-ci illə müqayisədə 5,7%-i artaraq 52,1 milyard manata çatıb, yaradılmış əlavə dəyərin 46,5%-i məhz sənayenin payına düşüb. Ölkənin sənaye sahələrində bu müddətdə 30,8 milyard manatlıq məhsul istehsal olunub və xidmətlər göstərilib. Sənayenin qeyri-neft sahələrində 3,2%, neft sektorunda isə 1,3% artım müşahidə olunub. Qeyri-neft bölməsinin məhsullarından qida, içki, dəri və dəri məmulatlarının, ayaqqabıların, poliqrafiya, kimya, əczaçılıq, tikinti materiallarının, maşın və avadanlıqların, avtomobil və qoşquların, digər nəqliyyat vasitələrinin və s. məhsulların istehsalında daha çox artım əldə edilib.

İqtisadi tərəqqi prosesinin keyfiyyətcə yeni mərhələsində qeyri-neft sənayesinin inkişafı həm də ölkədəki əlverişli biznes və investisiya mühiti ilə şərtlənir. Qeyri-sənaye sektorunda iri müəssisələrin işə salınması həm də iri vergi ödəyicilərinin sayının artması, vergitutma bazasının genişləndirilməsi, vergi daxilolmalarının həcminin artması üçün əlverişli zəmin yaradır.

**Samir MUSTAFAYEV**

# Vergi güzəştləri bank əmanətlərinin həcminin artmasına səbəb olacaq

*Milli Məclis ötən ilin sonunda «Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında» qanun layihəsini qəbul edib. Qanuna əsasən, 2014-cü il yanvarın 1-dən əhalinin bank və kredit təşkilatlarındakı əmanətləri gəlir vergisindən azad edilib və bununla banklarda əmanətləri olan vətəndaşların depozitlərinin vergiyə cəlb olunması prosesi daha bir il uzadılıb.*

Beynəlxalq vergi və bank qanunvericiliyinə əsasən, kredit, maliyyə, bank, qiymətli kağızlar bazarında dividend məqsədi ilə yerləşdirilmiş depozit və qiymətli kağızlar vergiyə cəlb olunur. Azərbaycan hökumətinin bu qərarı isə ölkədə bank sisteminin maliyyə vəziyyətinin gücləndirilməsi, əhalinin banklara depozit qoyuluşlarını stimullaşdırmaq məqsədi daşıyır.

Ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan bank sektorunun inkişafı naminə edilən güzəştlərlə bərabər, sığorta və təkrarsığorta şirkətlərinin kapitallaşma səviyyəsinin artırılmasının stimullaşdırılması məqsədilə həmin qurumların mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad edilib. Bu güzəştlər nəticəsində bank, sığorta və təkrarsığorta şirkətləri tərəfindən son 3 ildə nizamnamə kapitalının artırılmasına yönəldilmiş 500 milyon manatdan artıq mənfəətin müqabilində onlara 107 milyon manatdan çox vergi güzəşti edilib.

Birbaşa bank əmanətləri ilə bağlı tədbirlər vətəndaşların banklara əmanət qoyuluşlarının həcminin artmasına ciddi təsir göstərib. 2013-cü ilin 11 ayında əhalinin banklardakı əmanətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən təxminən 35% artaraq 6,5 milyard manat təşkil edib. Həmin vəsaitlərin 3,9 milyard manatı milli valyuta ilə, 2,4 milyard manatı isə xarici valyuta ilə banklara qoyulub.

Hesablamalara görə, əhalinin banklardakı əmanətlərindən illik əldə olunan dividendlərin ümumi həcmi təxminən 200 milyon manat təşkil edir. Həmin gəlirlərə vergi tətbiq edilsə, il ərzində dövlət büdcəsinə təxminən 30 milyon manat əlavə vəsait daxil ola bilər. Bununla belə, Azərbaycan hökuməti vergi güzəştləri ilə bankların kapitallaşmasına şərait yaratmaqla yanaşı, əhalinin dividend əldə etmək imkanlarını da stimullaşdırır. Nəticədə il ərzində banklara əmanət qoyuluşlarının həcmi 500 milyon manatdan çox artır. Ümumiyyətlə, əhalinin banklardakı əmanətlərinin məbləği təxminən hər il 30% civarında yüksəlir.

Ekspertlərin fikrincə, depozitlərin vergidən azad olunması əmanət qoyuluşlarının dinamıkasının 2014-cü ildə də yüksəlməsinə imkan verəcək. Bu, həm də banklara 2014-cü ilin sonuna kimi öz nizamnamə kapitalını artırmaqla bağlı qoyulmuş tələbləri yerinə yetirməkdə dəstək xarakteri daşıyır.

Onu da vurğulamağa dəyər ki, Azərbaycanda bank əmanətlərinin vergidən azad olunduğu bir vaxtda Avropa Birliyinin əksər ölkələrində (Yunanıstan, Şimali İrlandiya, İspaniya, Portuqaliya, İspaniya, Kipr) əhalinin depozitlərinə tətbiq edilən vergi yükü bir qədər də artırılıb. Avropada bank əmanətlərinin həcmi 50 mindən artıq olan əmanətçilər üçün vergi dərəcələri daha yüksəkdir. Məsələn, avrozona ölkələrində banklardakı 50 mindən 100 min avroyadək əmanətlərə tətbiq olunan vergi dərəcəsi 6,5%, həmin məbləğdən yuxarı olan əmanətlərə isə 9,9% təşkil edir. Avropa ölkələrinin mərkəzi bankları və maliyyə strukturları bu addımı borc böhranından çıxış yollarından biri hesab edirlər. 2013-cü ildən tətbiq olunan yeni qərar AB ölkələrinin əksəriyyətində əhalinin banklara depozit qoyuluşlarının azalmasına gətirib. Avropa Stabilləşdirmə Fondunun məlumatına görə, yüksək vergi adi vətəndaşlarla yanaşı, iri biznes sahiblərinin də depozitlərini digər maliyyə strukturlarına transfer etməsinə, xüsusilə də İsveçrə və Böyük Britaniya banklarına «daşımasına» səbəb olub.

«Moody's» reytinq agentliyinin mütəxəssisləri hesab edirlər ki, bank depozitlərinə yüksək vergi tətbiq olunması son nəticədə bank sektoruna kapital qoyuluşlarına mənfi təsir edir. Bu tendensiya bankların gələcəyi üçün nikbin vəd vermir və əhalinin banklara olan inam və etibarının itməsinə gətirib çıxara bilər. Bu cür siyasət maliyyə öhdəliklərini yaxşı yerinə yetirə bilməyən bank və kredit təşkilatlarının likvidliyini daha böyük təhlükəyə məruz qoyur.

«Moody's» agentliyinin mütəxəssisləri Azərbaycanın bank sisteminin depozit qoyuluşlarına görə çox əlverişli olduğunu bildirirlər. Respublikamızın bank bazarında sabit vəziyyətin olmasına diqqət çəkən təşkilat əhalinin banklara yerləşdirdiyi əmanətlərin artımını səmərəli siyasətin nəticəsi hesab edir. «Moody's» bu faktorun Azərbaycan banklarının kapitallaşmasına yaxşı təsir göstərdiyi qənaətindədir. Agentliyin ekspertlərinin rəyinə görə, bank sistemində kapitallaşma siyasətinin davam etdirilməsi, likvidlik göstəricilərinin artırılması, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, risk potensialının artırılması ilə bağlı həyata keçirilən siyasət yaxşı qiymətləndirilə bilər. Uçot dərəcələrinin aşağı salınması, manatın məzənnəsinin sabit saxlanmasına yönəlmiş siyasətin davam etdirilməsi bankların fəaliyyətinə müsbət təsir göstərib.

**Elbrus CƏFƏRLİ**

# Özəl sektorda işləyənlərin sayı artır

*Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2013-cü il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1505,9 min nəfər olmuş və onlardan 901,8 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 604,1 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir.*

Muzdla işləyənlərin 22,7%-i təhsildə, 18,8%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,3%-i sənayedə, 8,7%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 7,1%-i tikintidə, 4,9%-i nəqliyyat və anbar təsərrüfatında, 3,7%-i peşə, elmi və texniki fəaliyyət sahəsində, 2,9%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,8%-i informasiya və rabitə sahəsində və 17,1%-i iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2013-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 419,0 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə, inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Özəl bölmədə muzdla işləyənlər və onların orta aylıq əməkhaqqı daha çoxdur. Bəzən bir sıra böyük şirkətlərdə 3-4 nəfərin işləməsi ilə bağlı vergi orqanlarına hesabatlar verilir. Halbuki belə yerlərdə çalışanların sayı dəfələrlə çox olur. Xüsusilə ticarət, xidmət və iaşə sahələrində belə nöqsanlara geniş rast gəlinir. Bu cür halların qarşısının alınması üçün vergi orqanları tərəfindən mütəmadi olaraq nəzarət tədbirləri həyata keçirilir. 2013-cü ildə vergi orqanları tərəfindən həyata keçirilmiş operativ vergi nəzarət tədbirləri zamanı 5 min 244 vergi ödəyicisi tərəfindən 3 min 371 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi aşkar olunmuş və bu faktlarla bağlı qanuna müvafiq tədbirlər görülmüşdür.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# «Vergi partnyorluğu sazişi»nin uçota və auditə təsiri

**Əvvəli ötən sayımızda**

Belə rəsmiləşdirmə olmadığı halda, Vergi Məcəlləsinin 14-cü və 67-ci maddələrinin tətbiqi mümkündür və düşünürəm ki, vergi ödəyicisi sərbəst surətdə 14-cü maddəni tətbiq edə bilər. Məcəllənin 14.6.5.2-ci maddəsinə görə malgöndərəni (iş görəni, xidmət göstərəni) müəyyənləşdirmək mümkün olmadıqda, həmin malların (işlərin, xidmətlərin) dəyəri gəlirdən çıxılan xərclərə bazar qiymətləri ilə aid edilir və vergilər yenidən hesablanır. Məcəllənin 130.1-ci maddəsində göstərilir ki, vergitutma məqsədləri üçün gəlirlər və xərclər bu Məcəlləyə əsasən müəyyən edilir. Deməli, vergi ödəyicisi aldığı mal-materialların alıcısı göstərilməyən daxili aktla real əldə etdiyi materialların bazar qiymətilə silinən dəyərini Məcəllənin 14.6.5.2-ci maddəsini əsas gətirməklə vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edə bilər.

Əlbəttə ki, belə halda vergi ödəyicisinin Məcəllənin 73-cü maddəsi üzrə qanunla müəyyən edilmiş hallarda və qaydada ödənilmiş məbləğlər haqqında vergi orqanına məlumat vermək öhdəliyi yaranır. Daxili aktla qəbul edilən malların satıcısı (malgöndərəni) barədə hər hansı məlumat verməyən, məlumat verməkdə çətinlik çəkən və ya məlumat verməkdən yayınan vergi ödəyicisi qanunla məsuliyyət daşıya bilər. Bunu haqqında məlumatları verilməyən «gizlənmiş» malgöndərənin vergidən yayınmasına şərait yaradılması kimi qiymətləndirmək olar. Daxili aktla qəbul edilən malların satıcısı (malgöndərəni) barədə məlumat verən vergi ödəyicisi isə Vergi Məcəlləsinin 14.6.5.2-ci maddəsini tətbiq etməkdə özünə haqq qazandırmış olur.

Əlbəttə ki, bütün bunlar «Vergi partnyorluğu sazişi»nin bağlanması ilə öz həllini tapa bilər. Sazişin bağlanması ilə vergi ödəyicisinin vergi orqanına daha da yaxın olması halının yaranması vergi ödəyicisini uçota əməl etməsinə daha çox maraqlı edən, həmçinin vergi mədəniyyətinin formalaşmasına təkan verən amilə çevrilir. Uçota və sənədləşmələrə düzgün əməl edilməsi isə aparılan auditin nəticələrinin şəffaflığına da müsbət təsir göstərir.

**Davamı növbəti sayımızda**




# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**2-ci MƏRHƏLƏ**

Əməliyyat jurnalını işləmək. Bu mərhələdə mühasib topladığı ilkin sənədlər əsasında baş vermiş təsərrüfat əməliyyatlarını ikili yazılış üsulu qaydasında əməliyyat jurnalında əks etdirir. Məqsəd əməliyyatların müəssisəyə iqtisadi təsirini təsvir, təhlil və müəyyən etməkdir. Əməliyyatlar baş vermə tarixi ardıcıllığı və bir neçə zəruri göstəriciləri ilə jurnalda əks etdirilir.

Mühasib 2-ci mərhələni həyata keçirmək üçün ikili yazılış texnikalarını tam bilməlidir. Baş vermiş əməliyyatın «Aktiv», «Öhdəlik», «Kapital», «Gəlir», «Xərc» və «Mənfəətin bölüşdürülməsi» kimi maliyyə elementlərinə necə təsir etdiyini (necə dəyişiklik yaratdığını) və yaxud da əməliyyat baş verdikdə bu elementlərdə artmaların və (və ya) azalmaların necə və hansında baş verdiyini bilən mühasib üçün ikili yazılışların verilməsi çətin olmayacaqdır. Məsələn, malsatan təşkiladan («Moti» MMC) 07.01.2014-cü il tarixdə 870610 №-li qaimə-faktura əsasında 1500 manat dəyərində xammal alınmışdır və xammalın dəyərinin bir hissəsi (900 manat) 10.01.2013-cü il tarixdə 04 №-li ödəmə tapşırığı əsasında müəssisənin bank hesabından pul formasında ödənilmişdir. Burada müəssisə üçün 2 əməliyyat baş verdi, 1-ci xammalın alınması və 2-ci isə xammalın dəyərinin ödənilməsidir. Xammalın alınması nəticəsində maliyyə elementlərində «Aktivin» artması və malsatana olan «Öhdəliyin» yaranması (artması) kimi dəyişiklik baş verdi. Xammalın dəyərinin ödənilməsi nəticəsində isə maliyyə elementlərində «Öhdəliyin» azalması və «Aktivin» azalması kimi dəyişiklik baş verdi. Alıcı müəssisədə bu əməliyyatları ikili yazılış formasında aşağıdakı kimi göstərə bilərik:

1. Xammalın alınması əməliyyatı üzrə

Debet «Xammal və materiallar» ———————— 1500,00 manat

Kredit «Malsatana olan kreditor borclar» —— 1500,00 manat

2. Xammalın dəyərinin ödənilməsi əməliyyatı üzrə

Debet «Malsatana olan kreditor borclar» —— 900,00 manat

Kredit «Bankda olan cari manat hesabı» —— 900,00 manat

Deməli, əməliyyat jurnalını işləmək üçün mühasibin ikili yazılışların verilməsi ilə bağlı bilikləri mükəmməl olmalıdır.

Əməliyyat jurnalının forması aşağıdakı kimidir *(Bax: Cədvəl 1)*.

məzmun əks etdirilir. Birinci sol yuxarı küncdən başlayaraq debet hesabın adı, ikinci isə onun altından bir az sağdan başlamaqla kredit hesabın adı yazılır, üçüncü olaraq lap aşağıdan əməliyyatın məzmunu yazılır. Jurnalın «DEBET» və «KREDİT» yazılan sütunları üzrə sətirlərində isə müvafiq hesabların qarşısında əməliyyatın məbləği (dəyər) ifadəsi əks etdirilir.

Bizim misal üzrə baş vermiş iki əməliyyat jurnalda aşağıdakı kimi əks etdiriləcəkdir *(Bax: Cədvəl 2)*.

Jurnalda hesabların adı barədə göstəricilər ölkənin Milli hesablar planında əks etdirilən hesabların adına müvaifq əks etdirilməlidir. Əməliyyatın məzmunları barədə əks etdirilən qeydlərin isə konkret for-

Cədvəl 1

| Tarix | Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| | | | |
| | | | |

Cədvəl 2

| Tarix | Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| 07.01.2014 | «Xammal və materiallar»<br>«Malsatana olan kreditor borclar»<br>«Moti» MMC-dən 870610 №-li, 07.01.2014-cü il tarixli qaimə-faktura əsasında xammal alınmışdır | 1500,00 | 1500,00 |
| 10.01.2014 | «Malsatana olan kreditor borclar»<br>«Bankda olan cari manat hesabı»<br>04 №-li, 10.01.2014-cü il tarixli ödəniş tapşırığı ilə «Moti» MMC-yə 870610 №-li, 07.01.2014-cü il tarixli qaimə-fakturanın dəyərinin bir hissəsi ödənilib | 900,00 | 900,00 |

Jurnalın (cədvəlin) «tarix» yazılan sütunu üzrə sətirlərdə əməliyyatın baş verdiyi tarix (həmin əməliyyat üzrə əldə edilən və ya tərtib olunan ilkin sənəddə göstərilən tarix) gün, ay və il şəklində əks etdirilir. «Hesabın adı və əməliyyatın məzmunu» yazılan sütun üzrə sətirlərdə Milli hesablar planı üzrə əməliyyatın əks etdirilməli olan həm debet, həm də kredit hesabının adı və əməliyyat barədə qısa matı yoxdur. Əsas odur ki, baş vermiş əməliyyat haqqında məlumatı əldə etmək mümkün olsun. Məsələn, 2-ci əməliyyat üzrə məzmunu belə də yazmaq olardı: «Ödəniş tapşırığı №04, 10.01.2014, Moti MMC» və yaxud da 1-ci əməliyyat üzrə məzmunu belə də yazmaq olardı: «Moti MMC, qaimə-faktura №870610, 07.01.2014».

**Davamı növbəti sayımızda**

vergi təqvimi

| YANVAR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:** 15 yanvar - «(1)», «(2)»
21 yanvar - «1-1», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11»
31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# İctimai nəqliyyatda kartla ödəniş sisteminin tətbiqinə başlanılır

*2011-ci ilin sonlarında Bakıda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi fəaliyyətə başlamışdı. Mərkəz hərəkət marşrutlarının optimallaşdırılması, hərəkətin təhlükəsizliyinin yüksəldilməsi və nəqliyyatın sıx olduğu küçə və prospektlərdə hərəkətin tənzimlənməsi, nəqliyyatın hərəkəti barədə məlumatların nəqliyyatın istifadəçilərinə çatdırılması və digər xidmətlərin həyata keçirilməsinə xidmət etməli idi.*

Mərkəzin fəaliyyətə başlamasından sonra ictimai nəqliyyatda kart vasitəsilə ödəniş sisteminin tətbiqi məsələsi ortaya çıxmışdı. Ötən il ərzində sınaq testləri məqsədilə 1000 avtobusda kart sisteminə keçid üçün vladiatorlar da quraşdırıldı. Lakin bu sistemin tətbiqinin reallaşması vaxtı bəzi texniki səbəblərə görə bu ilə keçirildi.

Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, kartın qiyməti 3 manat müəyyən edilib: bunun 2 manatı sığorta depozitidir, 1 manatı isə balansa yüklənir.

Bildirilir ki, hazırda kartlar 10 və 95 saylı marşrutlarda tətbiq olunur. Fevralın sonuna kimi kart sistemi 36 marşrut xətti üzrə hərəkət edən 650 avtobusda tətbiq olunacaq. Ödəniş üçün istifadə edilən prepaid-kartlar MasterCard bazasında «Bank of Azerbaijan» tərəfindən buraxılıb.

Nazirlikdən verilən məlumata görə, artıq təxminən 450 min kart hazırdır və əlavə bir milyon kart sifariş edilib. Kartları Bakıdakı köşklərdən, eləcə də «Bank of Azerbaijan»ın filiallarından əldə etmək olar. Kartın balansını isə köşklərdə, eləcə də xüsusi loqotip olan satış nöqtələrində artırmaq mümkündür.

**AYTƏN**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

«Moskva ərzaqları» marketinin sahibi Elnur Sadıqov mağazanın adını bu cür seçməklə xarici ölkəyə məxsus məhsullar satmaq yolu ilə xeyli müştəri qazanacağını düşünsə də, mağazada Moskva istehsalı adı altında qanunsuz və keyfiyyətsiz məhsulların satışı ilə məşğul olub. İstehlakçıların şikayətləri əsasında mağazada satışa qoyulmuş saxta məhsullar barədə müvafiq qurumlara müraciət olunub. Məsələ ilə əlaqədar Nəsimi Rayon Məhkəməsi araşdırma aparıb və məhkəmənin çıxardığı qərara əsasən, mağaza sahibinə qarşı 1000 manat cərimə tətbiq edilib. Lakin E.Sadiqov ona verilən cəzadan düzgün ibrət dərsi almayıb və qanunsuz əməllər törətməkdən çəkinməyib.

Vergilər Nazirliyi yanında Vergi Auditi Departametinin Operativ nəzarət idarəsinin əməkdaşları tərəfindən aparılmış operativ vergi nəzarəti tədbirlərindən sonra qeyd olunan obyektdə tütün məmulatları və alkoqollu içkilərin satışı dayandırılıb. Müəyyən edilib ki, fərdi sahibkar E.Sadıqov aksiz markası ilə markalanmamış ümumi dəyəri 3357,70 manat məbləğində siqaret məhsullarını və spirtli içkiləri «Moskva ərzaqları» marketində qanunsuz satışa çıxarıb. Həmin marketdə aşkar olunmuş saxtakarlıqlarla bağlı materiallar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim edilib və faktla bağlı istintaq işləri başlanılıb. Məlum olub ki, E.Sadıqov mağazadakı aksiz markaları olmayan 1264 qutu siqareti və 6 ədəd arağı tanımadığı şəxsdən alıb, həmin malları satış məqsədi ilə mağazada saxlayıb. İş üzrə təyin edilmiş kompleks fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizasının rəyi nəticəsində 1264 qutu tütün məmulatının zavod üsulu ilə istehsal qaydasına uyğun olduğu və istifadəyə yararlılığı təsdiq edilib. Bununla belə, tədqiqata təqdim edilən içkilərin içində 1 şüşə «Stolichnaya Russian vodka» markalı araq kustar üsulla hazırlanıb və istifadəyə yararsız olub. Bu içkinin orqanizm üçün təhlükəli olduğu müəyyənləşib.

Sahibkar ona elan edilmiş ittihamda özünü tam təqsirli bilib, günahlarını etiraf edib, tutduğu cinayət əməlindən peşmançılıq çəkdiyini bildirib. Mağaza sahibinin cinayət törətməsi onun etirafedici ifadəsindən başqa, şahid ifadələri, ekspert rəyi və digər istintaq materialları ilə də tam sübuta yetirilib. Təqsirləndirilən E.Sadıqova qarşı CM-in 213-1.2.1 və 213-1.2.2-ci maddələrində nəzərdə tutulan ittiham elan edilib və onun barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

**ELBRUS**

beynəlxalq panoram

# Gənclər üçün iş yerləri yaradan şirkətlərə vergi güzəştləri

*İtaliya hökuməti iki ildən çox davam edən iqtisadi tənəzzüldən çıxış yollarından biri kimi gəncləri daimi işlə təmin edəcək sahibkarlara vergi güzəştlərinin verilməsini təklif edib.*

İtaliya parlamentinin deputatlar palatası vergi qanunvericiliyinə dəyişiklikləri son oxunuşda qəbul edib. Dəyişikliklər əhalinin məşğulluq səviyyəsinin artırılması və ölkədə iqtisadi artımın sabitləşməsinə xidmət edəcək. Yeni dəyişikliklərə əsasən, 30 yaşınadək gəncləri azı 12 ay müddətinə daimi işə götürən şirkətlərə vergi güzəştləri veriləcək.

İtaliya hökuməti növbəti üç il ərzində vergi güzəştlərinin yeni proqramının maliyyələşdirilməsinə 794 milyon avro xərcləməyi planlaşdırır. Bu, işəgötürənlərə hər yeni işçiyə görə büdcə ilə qarşılıqlı hesablaşma zamanı hər ay 650 avroya qədər əlavə vəsait qənaət etməyə imkan verəcək. Qeyd edilməlidir ki, hələ yay aylarında təklif edilmiş ilkin güzəşt paketinin maliyyə xərcləri təxminən 1,5 milyard avro həcmində qiymətləndirilmişdi.

İtaliyanın Baş naziri dəfələrlə qeyd edib ki, hökumətin sosial-iqtisadi sahədə əsas vəzifələrindən biri gənclər üçün yeni iş yerlərinin yaradılmasıdır. Rəsmi məlumatlara görə, gənclər arasında işsizlik təxminən 42% təşkil edir. İqtisadi artım templərinin stabilləşdirilməsinin vacibliyi və istehlak tələbatının stimullaşdırılması zərurəti İtaliya hökumətini əlavə dəyər vergisinin dərəcəsinin nəzərdə tutulan 1%-lik artımını cari ilin sonlarına qədər təxirə salmağa məcbur edib. İlkin planlara görə, vergi dərəcəsinin artımının avqustda həyata keçirilməsi nəzərdə tutulmuşdu.

# Günəş enerjisindən istifadəyə vergi tətbiq edilib





*İspaniya hökuməti günəş enerjisindən istifadəyə vergi tətbiq edib. Dünyanın müxtəlif KİV orqanları İspaniya hökumətinin bu addımını «gülünc» adlandırıblar.*

Məlum olduğu kimi, İspaniya alternativ enerjinin əldə edilməsinə imkan verən günəş fotoelektrik batareyalarının quraşdırıldığı ən böyük ölkələrdən biridir. Hökumət bununla dövlət büdcəsinə əlavə vəsaitlər cəlb edəcəyinə və elektrik enerjisi istehsalçıları qarşısında borclarını ödəyəcəyinə ümid edir. 26 milyard avro məbləğində olan bu borc hökumətin enerji daşıyıcılarına olan qiymətləri tənzimləməsi zamanı yaranıb.

Bununla belə, ekspertlərin fikrincə, hökumətin planları böyük ehtimalla baş tutmayacaq, çünki yeni vergi xərclər və səmərəlilik baxımından məntiqli hesab edilmir. Bir çox istehsalçılar sadəcə bu vergini verməyəcəklər, çünki günəş batareyalarının quraşdırılmasına 600 avro tələb olunduğu halda, cərimələrin məbləği 6 milyon avro təşkil edəcək və bu səbəbdən, istehsalçılar hətta məhkəməyə getməyə hazırdır.

**İspaniya** - günəşli və isti ölkədir. Onun bəzi cənub və şərq regionlarında hətta ilin 350 günü günəşli keçə bilir. Mütəxəssislərin fikrincə, bu, günəş enerjisinin alınması üçün yaxşı zəmindir. Digər vacib məsələ ölkənin öz enerjidaşıyıcılarının, yəni neft və qazın olmamasıdır. Mövcud kömür resurslarına gəlincə, bu ölkədə kömür aşağı keyfiyyətlidir, hasilatı isə həddən ziyadə bahalıdır. Bu gün İspaniyada istehlak edilən bütün elektrik enerjisinin 4%-i günəş enerjisini istehsal edən qurğularda əldə edilir. Bu stansiyaların ümumi gücü 5 min meqavatdır.

# İtaliyanın vergi sistemi

*İqtisadiyyatının əsasını sənaye sektoru təşkil edən İtaliya ümumi daxili məhsulun (ÜDM) həcminə görə dünyada 9-cu, Avropada 4-cüdür - 2.014 mlrd. ABŞ dolları. ÜDM-in sektorlar üzrə bölgüsü isə belədir: xidmət 73,8%; sənaye 24,2%; kənd təsərrüfatı 2%. Ölkədə adambaşına düşən ÜDM 30 min 600 ABŞ dollarıdır. Dövlət büdcəsinin gəlirləri 972,5 mlrd. dollar, dövlət büdcəsinin xərcləri 1.034,0 mlrd. dollardır. Ölkədə işsizlik səviyyəsi 10,6%; inflyasiya 3,3%, yoxsulluq səviyyəsi 19,6%-dir. Strateji valyuta ehtiyatları 181,7 mlrd. dollardır.*



İtaliyanın vergi inzibatçılığı Avropa Birliyinin ən mükəmməl vergi sistemlərindən hesab olunur. Dövlət büdcəsinə illik vergi daxilolmalarının həcmi 588,43 mlrd. dollar (o cümlədən birbaşa vergilər 54,2%, dolayı vergilər 45,8%), vergi daxilolmalarının ÜDM-ə nisbəti 29,2% (o cümlədən birbaşa vergilər 15,8%, dolayı vergilər 13,4%), vergi daxilolmalarının büdcə gəlirlərinə nisbəti 60,5% təşkil edir. Ölkədəki vergi ödəyicilərinin sayı 41 milyon 300 min nəfərdir ki, onların 12,4 %-i ƏDV ödəyiciləridir. Vergi ödəyicilərinin əhalinin sayında xüsusi çəkisi 67,2 %-dir. Bir vergi ödəyicisinə düşən ödənilmiş vergilərin həcmi 14,2 min dollardır. Vergi ödəyicilərinin iri maşınqayırma müəssisələri, özəl fondlar, xüsusi kommersiya müəssisələri, müstəqil hüquqi şəxs olmayan və xüsusi məqsədlər üçün əmlaka sahib olmayan assosiasiyalar, sənaye obyektləri əsas yer tutur.

İtaliyanın vergi orqanı İqtisadiyyat və Maliyyə Nazirliyi tərkibində fəaliyyət göstərən İtaliya Gəlirlər Agentliyidir. Agentliyin təşkilati fəaliyyət forması funksional, vergi növləri və vergi ödəyicilərinin seqmenti üzrə bölünüb. Vergi administrasiyası tərəfindən idarə olunan əsas vergilər: gəlir vergisi, ƏDV, mənfəət vergisi, kapitaldan gəlir vergisi, əmlak vergisidir. Vergi administrasiyasına daxil olan departamentlər və yerli orqanlar 21 regional vergi orqanları regional strukturlara həvalə edilmiş vergi planlaşdırılması, idarə olunması, koordinasiya və nəzarət tədbirlərini həyata keçirir. Həmçinin xüsusi hallarda iri vergi ödəyicilərinin auditi və təhqiqatın başlanılması da onların fəaliyyətinə aid edilə bilər.15 ərazi vergi orqanı vergi ödəyicilərinə məlumat xidmətləri göstərir, vergilərin müəyyən edilməsi, yığılması, bununla bağlı mübahisələrin həlli də onların funksiyasına aid edilir.

***Vergi növləri.*** Mənfəət vergisinin növünün əsas ödəyiciləri səhmdar şirkətləri, məhdud məsuliyyətli şirkətlər, səhmdar ortaqlıqları, kooperativ və qarşılıqlı sığorta şirkətləri, özəl və ya ictimai müəssisələr, rezident olmayan müəssisə və ya şirkətlər hesab olunur.

Mənfəət vergisinin standart dərəcəsi 27,5%-dir. Amma 2011-ci maliyyə ilindən etibarən əvvəlki ildə gəlirləri (dövriyyəsi) 10 mln. avrodan artıq olan və vergi tutulan gəlirləri 1 mln. avrodan çox olan enerji istehsalı və təchizatı sahəsində fəaliyyət göstərən müəssisələr mənfəət vergisinə 38% dərəcə ilə cəlb olunurlar.

Ölkədə ƏDV mal və xidmətlərin təqdim edilməsinə və idxala tətbiq olunur. ƏDV-nin dərəcəsi 22%-dir. Azaldılmış ƏDV dərəcəsi 10% dərəcə ilə əczaçılıq, sərnişin nəqliyyatı, mədəni tədbirlərin təşkili, otel, restoran fəaliyyətinə tətbiq edilir. Daha çox azaldılmış ƏDV dərəcəsi - 4% dərəcə ilə qida məhsulları, kitab çapına tətbiq edilir.

İtaliyada bəzi müəssisələrə vergi güzəştləri də tətbiq olunur, bu, daha çox regional güzəştlərdir. Bundan başqa, elmi araşdırma işlərinə də güzəşt tətbiq edilir.

İtaliyada vergi bəyannamələrinin təqdim olunma dövrü, maliyyə ili üçün xüsusi hallar müəyyən olunmamışdırsa, təqvim ili hesab olunur. Vergi bəyannamələri elektron qaydada doldurulub təqdim edilir. Verginin ödənilmə müddəti mənfəət vergisi üzrə ödənişlər əvvəlki vergi ilindəki ödənişlərə uyğun olaraq ildə 2 dəfə cari ödəniş şəklində həyata keçirilir. İtaliyada elektron xidmətlərin tətbiqi də genişdir. Ölkədə e-audit sistemi mövcuddur.

# Yunanıstanda biznes strukturlarının yarısı vergidən yayınır

*Vergidən yayınma Yunanıstan sahibkarlarının gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib və onların bir çoxu real dövriyyələrini gizlədirlər.*

Yunanıstanın Maliyyə Nazirliyi bu yaxınlarda apardığı araşdırmaların nəticələrini açıqlayaraq bildirib ki, ölkədəki şirkətlərin ən azı yarısı bu və ya digər formada öz vergi öhdəliklərinin intizamlı icrasından yayınır. Nazirliyin məlumatında göstərilir ki, ölkənin müxtəlif regionlarında 1465 şirkətdə aparılmış plandankənar vergi yoxlamaları zamanı vergi müfəttişləri 731 şirkətdə, ümumilikdə, 3904 müxtəlif qanun pozuntuları aşkarlayıb.

Yunanıstanın maliyyə naziri Yannis Stournaras bildirib ki, əsas pozuntular sırasında nağd satışlar zamanı kassa çeklərinin vurulmamasıdır ki, bu da pərakəndə ticarətdə satış vergisinin gizlədilməsi və ya azaldılması məqsədini daşıyır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Gülçiçəyikimilər fəsiləsinin gavalı cinsinə aid bitki növü; 2.Uilyam Şekspirin məşhur faciəsinin personajı; 3.Respublikamızda həftəlik ictimai-siyasi qəzet; 4.Qədim yunan tarixçisi və mifoqraf; 5.İxtira; 6.Yer kürəsinin şimal qütbü ətrafını əhatə edir; 7.Gürcüstanın cənub-şərqində yerləşən, ən qədim dövrlərdən bəri azərbaycanlıların məskunlaşdığı inzibati ərazi; 13.Azərbaycan xalq yazıçılarından biri, «Nəsimi» filminin ssenari müəllifinin adı; 14.Paxlakimilər fəsiləsinə aid bitki cinsi; 15.Başqırdıstan Respublikasının milli qəhrəmanının adını daşıyan şəhər; 16.On iki hərfdən ibarət, şərq papuas qrupuna aid dil; 18.Rus yazıçısı Maksim Qorkinin əsl soyadı; 22.Hər hansı bitki və ya heyvan növünün yer səthində təbii yayıldığı sahə; 23.Gürcüstanda şəhər; 24.Məşhur tennisçi və fotomodelin adı; 25.Kütləvi diskoteka.

**Soldan sağa:** 1.«Öz dilini bilməyən başqa dil öyrənə bilməz» kəlamının müəllifi, ingilis yazıçısı; 5.Qotik üslubda tikilmiş binalarda yarpaq formasında dekorativ detal; 8.Dramatik tenor və lirik bariton səsə malik İspaniya opera müğənnisinin adı. Luçano Pavorotti və Xose Karreras ilə birlikdə dünyanın üç ən güclü tenor səsli müğənnisindən biri hesab edilir; 9.Məşhur el aşığı, Aşıq Bilal məktəbinin yetirməsi və Şirvan aşıq məktəbinin ən tanınmış nümayəndələrindən biri (1922-1978); 10.Göz bəbəyinin daralması. Göz bəbəyini daraldan əzələnin yığılmasından, ya da göz bəbəyini genişləndirən əzələnin iflicindən əmələ gəlir; 11.Ağ ilə qaranın qarışığı; 12.Rusiyada şəhər. Zabaykalsk diyarının inzibati mərkəzi; 15.Respublikamızda ən böyük göl; 17.Ən qədim Azərbaycan rəqslərindən biri; 19.Stolüstü oyun; 20.Rumıniya və Moldovanın pul vahidi; 21.Yüzillik müharibə dövründə fransız xalqının ingilislərə qarşı azadlıq mübarizəsində iştirak etmiş Fransanın milli qəhrəmanının soyadı; 26.Çəki (karp) cinsinə aid dekorativ akvarium balığı; 27.Görkəmli Amerika yazıçısı Mark Tvenin əsl soyadı; 28.Serb əsilli fizik, ixtiraçı, maşın və elektrik mühəndisi, XIX və XX əsrin ən tanınmış ixtiraçılarından biri; 29.İtalyan bəstəkarı, skripkaçı, dirijor və pedaqoq (1678-1741).

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Aysar; 2.Tuluy; 3.Luen; 4.Prişib; 5.Bist; 6.Ruapehu; 7.Ağdamar; 13.Tar; 14.Sen; 15.Yoderit; 16.Nemirov; 18.Riçard *(Nikson)*; 22.Fərəc; 23.Qalen; 24.Kort; 25.Amil.

**Soldan sağa:** 1.Antilop; 5.Bursa; 8.Salyeri; 9.Slayd; 10.Reyn; 11.Kif; 12.Seym; 15.Yanvar; 17.Renuar *(Pyer Oqüst)*; 19.Düma *(Aleksandr)*; 20.KİA; 21.Afaq *(Başirqızı)*; 26.Rerio; 27.Admiral; 28.Tivat; 29.Dilican.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Vüqar Həşimovun xatirəsinə həsr olunmuş şahmat turniri

«ASAN Könüllüləri» Gənclər Təşkilatının təşkilatçılığı ilə görkəmli şahmatçı, 2009-cu ildə Azərbaycan yığmasının heyətində Avropa çempionu adını qazanmış və bu il




yanvarın 11-də dünyasını dəyişmiş mərhum Vüqar Həşimovun xatirəsinə həsr olunmuş turnir başlamışdır.

«ASAN Könüllüləri»ndən bildirmişlər ki, açılış mərasimimdə həyatdan vaxtsız getmiş Vüqar Həşimovun xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra turnirin startı verilmişdir. «ASAN xidmət»də çalışan könüllülərin iştirakı ilə keçirilən şahmat turniri 9 turdan ibarət olacaq və 3 gün davam edəcəkdir.

Qeyd edək ki, yanvar ayında ölkəmizdə keçiriləcək bütün idman yarışları Azərbaycan və Avropa çempionu, dəfələrlə şahmat olimpiadalarının iştirakçısı olmuş beynəlxalq dərəcəli qrossmeyster Vüqar Həşimovun xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanacaqdır.

# «20 Yanvar» şəhidinin xatirəsinə...

*Yanvarın 18-də Bakıdakı «Sərhədçi» İdman Olimpiya Mərkəzində yeniyetmələr arasında sərbəst güləş üzrə Müşfiq İsayevin xatirəsinə həsr olunmuş sayca 17-ci beynəlxalq turnirə start veriləcək.*




Ənənəvi olaraq hər il keçirilən turnir «20 Yanvar» şəhidi Müşfiq İsayevin xatirəsini yad etmək, yeniyetmə güləşçilərin idman ustalığını artırmaq, sərbəst güləşin inkişafına və kütləviliyinə nail olmaq məqsədilə keçirilir.

Beynəlxalq Güləş Federasiyasının (FİLA) mövcud qaydalarına əsasən 42, 46, 50, 54, 58, 63, 69, 76, 85 və 100 kiloqram çəki dərəcələri üzrə keçiriləcək yarışda Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Gürcüstan, İran, Qazaxıstan və Özbəkistan güləşçiləri də mübarizə aparacaqlar.

Turnirdə müvafiq çəki dərəcələri üzrə ilk üç yeri tutmuş idmançılar diplom, medal və pul mükafatı ilə təltif ediləcəklər.

# Sərbəst güləşçilərin illik reytinq siyahısı açıqlanıb

*Beynəlxalq Güləş Federasiyası (FİLA) 2013-cü ilin yekunlarına əsasən, sərbəst növ üzrə güləşçilərin illik reytinq siyahısını açıqlamışdır.*

Azərbaycan Güləş Federasiyasından bildirmişlər ki, reytinq siyahısına 10 pəhləvanımızın adı daxil edilmişdir. Siyahıda Yaşar Əliyev (55 kq, 11-ci yer), Əhmədnəbi Qvarzatilov (60 kq, 10-cu yer), Hacı Əliyev (60 kq, 11-ci yer), Ağahüseyn Mustafayev (66 kq, 11-ci yer), Cəbrayıl Həsənov (74 kq, 9-cu yer), Əşrəf Əliyev (74 kq, 13-cü yer), Aleksandr Qostiyev (84 kq, 8-ci yer), Xetaq Qazyumov (96 kq, 2-ci yer), Şərif Şərifov (96 kq, 8-ci yer) və Cəmaləddin Məhəmmədov (120 kq, 8-ci yer) qərar tutmuşlar.

# «Qızıl top»a «qızıl oğlan» layiq görüldü

*Yanvarın 14-də İsveçrənin Sürix şəhərində 2013-cü il üçün dünyanın ən yaxşı futbolçusunun adına açıqlanıb. Aparılan səsvermənin yekun nəticəsinə əsasən, dünyanın ən güclüsü bəlli olub.*



Portuqaliya millisinin, eyni zamanda İspaniyanın «Real» (Madrid) klubunun hücumçusu «Qızıl oğlan» ləqəbli Kriştiano Ronaldo rəqibləri - Fransa yığmasının üzvü, Almaniyanın «Bayer» (Münhen) komandasının oyunçusu Frank Riberini və Argentina millisinin, həmçinin İspaniyanın «Barselona» klubunun hücumçusu Lionel Messini geridə qoyaraq, «Qızıl top»un sahibi olub.

Mərasimdən sonra jurnalistlərin suallarını cavablandıran Lionel Messi portuqaliyalı həmkarının onu üstələməsini normal qarşıladığını bildirib: «Ronaldo gözəl bir il keçirdi. Buna görə də çox söz deməyə ehtiyac yoxdur. Riberi və mənim üçün də 2013-cü il uğurlu oldu. Məncə hər üçümüz «Qızıl top»a layiq idik. Ronaldonu təbrik edirəm. Bu, onun haqqıdır».

UEFA prezidenti Mişel Platini isə jurnalistlərə açıqlamasında bu mükafata ötən il öz komandası ilə bütün kuboklara sahib olan Frank Riberinin daha çox layiq olduğunu vurğulayıb.

Qeyd edək ki, Messi indiyədək «Qızıl top»u 4, Ronaldo isə 2 dəfə qazanıb. Mərasimdə, həmçinin, ilin ən yaxşı məşqçisi adına artıq karyerasını başa vurmuş Münhenin «Bayer» komandasının keçmiş baş məşqçisi Yupp Haynkes seçilib. 2013-cü ilin ən yaxşı qolu kimi isə İsveç millisinin üzvü, hazırda Fransanın «Pari Sen-Jermen» klubunun şərəfini qoruyan Zlatan İbrahimoviçin İngiltərəyə yığmasının qapısına vurduğu qol səs çoxluğu ilə 1-ci olub.

mozaika

## Konfet ağacı

maraqlı

Lənkəran rayonunun Bürcəli kənd sakini Nizam Cabbarovun şəxsi həyətyanı təsərrüfatında yetişdirilən konfet ağacı növbəti dəfə bar vermişdir. Ömrünün 59-cu baharını yaşayan Nizam Cabbarov 35 ildir ki, bağbanlıqla məşğul olur. Ötən əsrin 80-ci illərində Lənkərana gətirilən konfet ağacının toxumlarını bazardan alan Nizami Cabbarov onu həyətyanı sahəsində əkərək çoxaltmışdır. Hazırda bağbanın həyətində onlarla konfet ağacı vardır.



Vətəni Yaponiya, Çin, Hindistan və Koreya olan konfet ağacının çiçəklənmə dövrü, digər meyvə ağaclarından fərli olaraq, daha gec başlayır və ağac oktyabr-noyabr aylarında bar verir.

Konfet ağacının meyvələrindən təkcə çərəz kimi deyil, həm də dərman vasitəsi kimi istifadə olunur. Bu meyvələrin tərkibində insan orqanizmi üçün xeyli miqdarda faydalı maddələr, o cümlədən qlükoza, protein, saxaroza, fruktoza, kaliumnitrat vardır.

Ağacın meyvələrindən, həmçinin, nəfəs yollarının iltihabı, əsəb pozğunluğu, yoğun bağırsaq, öd kisəsi, mədə və böyrək xəstəliklərinin müalicəsində də istifadə edilir.

## Dünyada ən böyük buz meydançası

Kanadanın paytaxtı Ottava şəhərində dünyada ən böyük və ən uzun buz meydançası açılmışdır. Bu obyekt həm də bəşəriyyətin sərvəti sayılır. Parlament təpəsi yaxınlığında yerləşən Rido kanalının 7,8 kilometr uzunluğunda hissəsi konki sürmək həvəskarlarının ixtiyarına verilmişdir. Bəzi yerlərdə eni 70 metrə çatan buz meydançasında qış mövsümündə 38 gün ərzində 835 min nəfər, yəni təxminən Ottavanın əhalisi qədər insan olmuşdur.

Ontario gölü sahilindəki Kinqston ilə Ottava çayı arasında ümumi uzunluğu 202 kilometr, şlüzlərinin sayı 47 olan 1826-1832-ci illərdə tikilmiş bu kanal Böyük Göllər və Monreal arasındakı əraziyə ABŞ tərəfindən hücum ediləcəyi təqdirdə su təchizatını təmin etmək üçün nəzərdə tutulmuşdur. Kanalın tikintisində çalışan 7 minə yaxın işçinin əksəriyyəti İrlandiya və Fransadan olan immiqrantlar olub.

2007-ci ildə Şimali Amerikada Avropa texniki həllərinin genişmiqyaslı tətbiqinin nəticəsi olan Rido kanalına UNESCO-nun tarixi obyekti statusu verilmişdir.

Ümumi sahəsi 165,6 kvadratkilometr olan bu kanal dünyada ən böyük açıq buz meydançası kimi «Ginnesin rekordlar kitabı»na daxil edilmişdir.

Kanal üzərində buz meydançası CNN telekanalının versiyası üzrə dünyada beş ən gözəl buz meydançasının siyahısına daxil edilmişdir.

## İnsan qaraciyərinin analoqu yaradılacaq

texnologiya

**AzərTAc Kaliforniyanın «Organovo» biotexnoloji şirkətinin 2014-cü ilin sonunadək 3D printerinin köməyi ilə insanın qaraciyərinin analoqunu yaratmağa hazır olduğunu bəyan etməsi barədə məlumat vermişdir.**

Qaraciyərin «istehsalı» üçün fiziki obyektin laylarla yaradılması metodundan istifadə edilir. Orqanın süni toxumalarının hazırlanması üçün material qismində canlı hüceyrələrdən istifadə olunur.

Şirkətin məlumatına görə, mühəndislər layihənin inkişafını ləngidən əsas problemi - damar və kapilyar torunun hazırlanması məsələsini praktiki olaraq həll etmişlər. Biomühəndislərin fikrincə, bu mərhələdən keçid yararlı insan orqanının yaradılması imkanından danışmağa əsas verəcəkdir. Lakin 2014-cü ildə yaradılacaq süni qaraciyər transplantasiya üçün yararlı olmayacaq, orqandan yalnız dərmanların təsirinin, həmçinin onkoloji xəstəliklərin müalicəsi üsullarının öyrənilməsi üçün geniş istifadə olunacaqdır.

Şirkətin vitse-prezidenti Mark Renarın sözlərinə görə, insan həyatı üçün zəruri olan bu orqanın yaradılması dərmanların testdən keçirilməsinə sərf olunan vəsaitə yetərli qənaət etməyə imkan verəcəkdir. Dərman preparatlarının əlavə təsirinin, o cümlədən qaraciyərə təsirinin öyrənilməsi əczaçılıq sənayesinin nəhənglərinə milyardlarla dollar məbləğində vəsaitə başa gəlir.





hitech.newsru.com saytının məlumatına görə, 2011-ci ilin noyabrında şirkət 3D printeri ilə hazırlanmış damarsız qaraciyər toxumalarının kiçik nümunələrini nümayiş etdirmişdir. Toxumalar istənilən dəyişikliyə, o cümlədən zəhər və dərmanların daxil edilməsinə reaksiya verməklə 40 gün fəaliyyət göstərə bilmişdir.

Ekspertlər qeyd etmişlər ki, 3D printerinin köməyi ilə orqanların yaradılması imkanı transplantologiyada inqilab edəcək ki, bu da gələcəkdə şuntlama əməliyyatı üçün süni damarların, sinir ucluqlarının birləşdirilməsi üçün implantların yaradılmasına böyük imkanlar açacaqdır.

## Velosipedçilər üçün qeyri-adi kafe

İsveçrənin Sürix şəhər hakimiyyəti 2025-ci ildə nəqliyyat infrastrukturunun yaxşılaşması üzrə planı çərçivəsində dizayner studiyalarından birinə velosipedçilər üçün kafenin hazırlanması layihəsini sifariş etmişdir.

Nəticədə «Velokafi» adlanan qeyri-adi yığcam kafe ərsəyə gəlmişdir. «Velokafi»nin əsas özəlliyi ondan ibarətdir ki, küçədə quraşdırılmış xüsusi masaların qabaq divarında velosiped təkəri üçün kəsiklər vardır.

Beləliklə, kafeyə baş çəkmiş velosipedçi oturacağından düşmədən velosipedinin qabaq təkərini həmin kəsiyə park etməklə rahatlıqla çay içə və ya yemək yeyə bilər.




ELAN

«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**



***«Mən gözəlliyi sevirəm. Mədəniyyət isə mənə imkan verir ki, onu daha yaxşı başa düşüm və qiymətləndirim».***

*Cek London (1876-1916)*